www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 aprel 2018-ci il Bazar ertəsi № 69 (6858) Qiymıəti 60 qəpik

**Xəbər**

## Bakıdan rayona getdi, meyiti meşədə tapıldı

yazısı səh.14-də

**Gündəm**

### "4 günlük" aprel savaşının əsas dərsi



Tarixə düşən blits-qələbəmizdən 2 il ötdü; hərbi zəferi diplomatik zəfərə çevirə bildikmi?

yazısı səh.5-də

### Kəlbəcərin işğalından 25 il ötür

yazısı səh.3-də

### Rusiyanın Azərbaycana səfir təyinatında ləngimənin səbəbi

yazısı səh.9-da

### ATƏT 11 aprel seçkiləri ilə bağlı aralıq hesabat yaydı

yazısı səh.3-də

### Almaniyanın nüfuzlu telekanalı: "Ermənistanın gələcəyi yoxdur..."

yazısı səh.11-də

### İlin ilk 3 ayının iqtisadi yekunu - manatı nə gözləyir?

yazısı səh.10-da

*Ədalət Şükürov:*

### "10 ildir toy qiymətini dəyişmirəm"

yazısı səh.13-də

### Azərbaycan İranla viza rejimini ləğv edə bilər

yazısı səh.12-də

### Avropada mersiz qalan tək paytaxt - Bakı...

yazısı səh.14-də

### Nəqliyyat ekspertindən yol qəzalarını azaltmaq üçün maraqlı təklif

yazısı səh.14-də

### Gündə 1 litr su və 10 min addım - sağlam həyat tərzinin formulu

yazısı səh.15-də

# PUTİNDƏN ANKARA VƏ BAKIYA MÜHÜM JEST

Rusiya lideri seçkidən sonra ilk xarici səfərini Türkiyəyə - işğalçı Ermənistanın "qapı qonşusu"na edir; qardaş ölkə nüvə dövlətinə çevrilmə yolunda...




yazısı səh.8-də

## İcra başçısı Avropaya mühacir göndərməkdə ittiham olundu

Koalisiya rəhbəri Gədəbəy RİH-in başçısı Ramiz Yediyarovu rayonu aşirət qanunları ilə idarə eləməkdə suçladı: "Azərbaycandan kənarda olanların əməlləri ilə sizin əməllərinizdə fərq varmı?.."

yazısı səh.4-də



Ramiz Məmmədov

### Jurnalistləri aşağılayan institut direktoruna cinayət işi açıla bilər?

yazısı səh.5-də



### Elmar Məmmədyarova istefa tələbləri artır

yazısı səh.6-da



*Siyavuş Novruzov:*

### "Hansı formada istəyirlər, o formada söhbətə hazırıq"

yazısı səh.7-də

# 2 aprel 2018





## Gəncə sakinlərinin şikayətinə rəsmi cavab gəldi

**"Yeni Müsavat"ın bundan əvvəlki sayında dərc edilən "Bizi şəraitsiz evlərdə yaşamağa məcbur edirlər" yazısında Gəncə sakinlərinin şikayəti qeyd olunmuşdu. Yazıda sakinlər, o cümlədən Mahir Cəfərov tərəfindən daxil olan şikayətdə bildirilirdi ki, şəhərdə yeni böyük park salınması ilə əlaqədar olaraq Gəncə çayı ətrafındakı evlər zor gücünə sökülür, amma köçürülən sakinlərə heç bir kompensasiya ödənilmir.**

Məsələ ilə bağlı Gəncə İcra Hakimiyyəti tərəfindən "Yeni Müsavat"a yazılı cavab göndərilib. Qurumdan bildirilib ki, Gəncə çayının sol sahilində aparılan abadlıq-quruculuq işləri ilə əlaqədar həmin ərazidə yerləşən, böyük əksəriyyətinin heç bir şəraiti (sanitar qovşağı, hamamı) olmayan fərdi yaşayış evlərinin sakinləri razılıq əsasında Gəncə "Əlvan Metal" ASC-nin qərb tərəfində hər cür şəraiti olan və yeni inşa edilən evlərə köçürülüb: "Bu yaşayış evləri müasir standartlara uyğun kommunikasiya xətləri ilə təmin olunub".

Qurumdan şəhər sakini Cəfərov Mahir Cavanşir oğlunun müraciətinə də mövqe bildirilib: "Həmin sakinin yaşadığı ünvan Həsən Əliyev küçəsi, 1-ci döngə, ev 9 onun oğlu Cəfərov Ramil Mahir oğlunun adınadır. M.Cəfərovla evinin başqa əraziyə köçürülməsi ilə bağlı heç bir danışıqlar aparılmayıb".

Gəncə İcra Hakimiyyəti tərəfindən redaksiyamıza Gəncə çayının sol sahilindən köçürülən və yeni məskunlaşdıqları evlərin şəkilləri də təqdim olunub.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

## Bu gün Bakıda 14° isti olacaq



**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata əsasən, Bəzi yerlərdə zəif duman olacaq, arabir güclənən mülayim cənub-qərb küləyi əsəcək, havanın temperaturu gecə 4-7° isti, gündüz 9-14° isti təşkil edəcək.

## Abituriyentlər üçün ilk sınaq imtahanı keçirildi



**Dövlət İmtahan Mərkəzi (DİM) I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün dünən 18 şəhər və rayonda sınaq imtahanları keçirib. DİM-dən Musavat.com-a verilən məlumata görə, imtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Sumqayıt, Mingəçevir, Şəki, Qəbələ, Bərdə, Ağcabədi, Göyçay, Kürdəmir, İmişli, Şirvan, Lənkəran, Masallı, Xaçmaz şəhər və rayonlarında, ümumilikdə 49 binada təşkil olunub.**

İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 23579 abituriyent qeydiyyatdan keçib. İmtahanların idarə edilməsi üçün 147 imtahan rəhbəri, 1408 nəzarətçi-müəllim ayrılıb.

# Azərbaycanda hərbi xidmətə çağırış başlayıb



**Aprelin 1-dən Azərbaycanda növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb. Azərbaycan prezidenti İlham Əliyev 6 mart 2018-ci ildə "Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" sərəncam imzalayıb.**

Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Eyni zamanda "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılırlar.



## ABŞ-ın yeni dövlət katibi vəzifəsinin icrasına başlayıb

**Martın 31-də ABŞ-ın yeni dövlət katibi Mayk Pompeo rəsmən vəzifəsinin icrasına başlayıb. APA-nın "Amerikanın səsi" radiosuna istinadən verdiyi məlumata görə, Mərkəzi Kəşfiyyat İdarəsinin sabiq direktoru M. Pompeo hələ ki, dövlət katibi kimi xarici siyasətlə bağlı proqramını təqdim etməsə də, ABŞ KİV-ləri onu sərt və mühafizəkar siyasətçi kimi xarakterizə edir.**

Sələfi Reks Tillersondan fərqli olaraq, Pompeonun prezident Donald Trampla fikir ayrılığı yoxdur. R.Tillersona isə artıq yeni iş təklifləri ünvanlanmağa başlayıb. Texasda universitetlərdən biri sabiq dövlət katibinə ali təhsil müəssisəsinin Müşahidə Şurasına rəhbərlik etməyi təklif edib.

Qeyd edək ki, D. Tramp R. Tillersonun istefaya göndərilməsini xarici siyasətlə əlaqədar dövlət katibi ilə arasındakı fikir ayrılığı ilə izah edib.



## Səfirlik Rəhim Şəkinski ilə bağlı açıqlama yaydı

**Martın 30-da Fransanın Tuluza şəhərində baş vermiş cinayət əməli nəticəsində Rəhim Namazovun (Şəkinski) həyat yoldaşının qətlə yetirilməsi və özünün ciddi yaralanması ilə bağlı Azərbaycanın bu ölkədəki səfirliyi açıqlama yayıb. Musavat.com AzərTAc-a istinadən xəbər verir ki, Azərbaycan səfirliyi cinayət əməlinin qurbanının ailəsinə və yaxınlarına başsağlığı verib.**

"Səfirlik diqqətə çatdırır ki, Rəhim Namazov Azərbaycanda dəfələrlə dələduzluğa görə məhkum olunub. Onun Fransada və ya xaricdə mafiya strukturları ilə əlaqə saxlaması bəllidir. Rəhim Namazov Azərbaycanda heç vaxt jurnalistika fəaliyyəti ilə məşğul olmayıb. Onun jurnalist olmadığı fransız mediası, eləcə də Azərbaycan jurnalistləri və Sərhədsiz Reportyorlar Təşkilatı tərəfindən təsdiqlənib. Rəhim Namazov 2014-2016-cı illərdə səfirliklə dəfələrlə əlaqə saxlayıb və onun bütün konsulluq prosedurları və istəkləri mümkün olan ən yaxşı şəraitdə yerinə yetirilib. Bu cinayət əməlinin aydınlaşdırılması üçün Fransanın istintaq orqanları və Tuluza şəhərinin polis xidməti ilə müntəzəm əlaqə saxlayırıq", - deyə açıqlamada deyilir.

## İşğalçı Ermənistan ən qeyri-tolerant ölkə sayıldı

**Ermənistan Mərkəzi və Şərqi Avropa ölkələri arasında yəhudilərə münasibətdə ən qeyri-tolerant ölkə hesab olunub. "Trend"in məlumatına görə, bu barədə "Pew Research Center" tədqiqat mərkəzinin hesabatında qeyd olunur.**

Bildirilir ki, müvafiq sosial sorğu Mərkəzi və Şərqi Avropanın 18 ölkəsində bir il ərzində aparılıb. Hesabata əsasən, Ermənistan sakinlərinin 32 faizi öz ölkəsinin vətəndaşları arasında yəhudiləri görmək istəmir. Ən aşağı antisemitizm göstəricisi Ukraynada qeydə alınıb. Sorğu nəticəsində məlum olub ki, bu ölkədə sakinlərin yalnız 5 faizi yəhudilərə mənfi münasibət bəsləyir.

Əlavə edək ki, Ermənistan həm də postsovet məkanında yeganə monoetnik ölkədir. Bu qədim türk yurdundan sonuncu azərbaycanlı ötən əsrin 80-ci illərində çıxarılıb.



## Aman Tuleyev istefa verdi

**Ticarət mərkəzində çoxsaylı insanın ölümü ilə nəticələnən yanğının baş verdiyi Rusiyanın Kemerovo vilayətinin qubernatoru Aman Tuleyev öz istəyi ilə postunu tərk edir. "RİA-Novosti" xəbər verir ki, bu barədə bazar günü regional administrasiyanın məlumatında deyilir.**

"Kemerovo vilayətinin qubernatoru Aman Tuleyev öz istəyi ilə vəzifəsindən istefa verməl haqqında ərizə ilə Rusiya prezidenti Vladimir Putinə müraciət edib", - deyə vilayət administrasiyasının mətbuat xidməti bildirib. Putin istefanı qəbul edib və onun yerinə müvəqqəti olaraq müavini Segey Çivilyevi təyin edib.

"Zimnaya vişnya" ticarət mərkəzində yanğın martın 25-də baş verib. Faciə nəticəsində 41-i uşaq olmaqla, 64 nəfər həyatını itirib.

## Şəkidə ana ölümü ilə bağlı cinayət işi açıldı

**Şəkidə 31 yaşlı qadının doğuşdan sonra ölümü ilə bağlı cinayət işi başlanıb. Şəki şəhər sakini, 1987-ci il təvəllüdlü Məmmədova Türkan İlham qızı martın 28-də Şəki Regional Perinatal Mərkəzinə qəbul olunaraq keysəriyə yolu ilə əməliyyat olunmaqla qız uşağını dünyaya gətirmiş, lakin əməliyyatdan sonra səhhəti pisləşən Türkan Məmmədova görülmüş müalicə tədbirlərinə baxmayaraq 31 mart 2018-ci il tarixdə həmin mərkəzdə vəfat edib.**

Faktla bağlı Şəki rayon Prokurorluğunda Azərbaycan Respublikası CM-nin 314.2-ci maddəsi ilə (zərərçəkmiş şəxsin ölümünə səbəb olan səhlənkarlıq) cinayət işi başlanmaqla zəruri təxirəsalınmaz istintaq hərəkətləri keçirilərək məhkəmə tibbi ekspertizası təyin edilib. Şəki Rayon Prokurorluğundan bildirilib ki, iş üzrə hərtərəfli, tam və obyektiv istintaqın aparılması və qanuni qərarın qəbul edilməsi təmin ediləcək.

# Seçkilərlə bağlı bəzi prosedurlar başa çatdı

## Namizədliyin geri götürülməsi üçün son müddət nə vaxtdır? ATƏT müşahidə missiyası seçkilərlə bağlı aralıq hesabat yaydı

**Aprelin 11-nə təyin edilmiş prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapı başa çatıb. Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədlinin "Yeni Müsavat"a verdiyi məlumata görə, aprelin 2-dən seçki bülletenlərinin seçki dairələrinə göndərilməsi prosesi başlanacaq.**

Bəs bülletenlər hazır olduqdan sonra namizədlərin namizədlikdən imtina etməsinə Seçki Məcəlləsi yol verirmi? Şahin Əsədli qeyd etdi ki, bu məsələnin necə tənzimlənməsi Seçki Məcəlləsinin 73-1.2-ci maddəsində aydın şəkildə göstərilir: "Orada qeyd olunur ki, qeydə alınmış namizəd səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına ərizə ilə müraciət edib namizədliyini geri götürə bilər. Daxil olmuş ərizə əsasında seçki komissiyası ərizə vermiş namizədin qeydiyyatının ləğvi barədə bir gün müddətində qərar qəbul edir. Seçki bülleteni hazırlanandan sonra əgər hansısa namizədlə bağlı ortaya problemlər çıxarsa, hansısa qanun pozuntusuna görə namizədin qeydiyyatı ləğv olunarsa, namizəd, məsələn, dünyasını dəyişərsə, bu cür hallarda Mərkəzi Seçki Komissiyasının qərarı ilə Məntəqə Seçki Komissiyaları həmin şəxs haqqında məlumatları seçki məntəqələrindəki məlumat lövhəsinə yerləşdirir, seçicilərə bildirilir ki, filan namizədlə bağlı belə bir hal baş verib".

Beləliklə, nəzərə alsaq ki, artıq səsvermə gününə 10 gündən az vaxt qalıb, deməli bu müddət başa çatıb.

Seçkiqabağı təşviqat başlayandan indiyədək namizədlərdən MSK-ya hər hansı şikayətin olub-olmadığına gəldikdə Ş.Əsədli dedi ki, bu günədək seçki qabağı təşviqat kifayət qədər rəvan şəkildə olub və heç bir şikayət, müraciət MSK-ya və ya aşağı seçki komissiyalarına daxil olmayıb.

Prezident seçkilərində ölkənin bütün ərazisində müşahidə aparılmasına dair ərizələrin MSK-ya təqdim edilməsi müddəti isə aprelin 1-də başa çatıb. Prezident seçkilərinin hazırlanıb-keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına əsasən, ərizələr seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsi gününə 10 gün qalanadək, yəni aprelin 1-dək təqdim edilməlidir.

Prezident seçkiləri ilə əlaqədar MSK və dairə seçki komissiyaları tərəfindən 53 təşkilat və 54 ölkədən 603 beynəlxalq müşahidəçi akkreditə olunub. Akkreditə olunmuş yerli müşahidəçilərin sayı isə 55 min 965 nəfərdir.

Aprelin 1-də, həmçinin səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün qeydiyyatdan keçməklə xüsusi icazə almaqdan ötrü MSK-ya müraciət edilməsi müddəti də başa çatıb. "Exit-poll" keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi prosesi də aprelin 1-də başa çatıb.



ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu Seçki Müşahidə Missiyası isə 11 aprel növbədənkənar prezident seçkisi ilə bağlı ilk aralıq hesabatını təqdim edib. Missiya keçirdiyi görüşlər əsasında hazırladığı hesabatda vurğulayır ki, onların bir çox müsahibi "seçkilərin həqiqətən rəqabətli əsasda keçiriləcəyini gözləmirlər", "Seçki kampaniyası hal-hazırda ümumiyyətlə zəif hiss olunur". Hesabatda həmçinin qeyd olunur ki, seçki komissiyaları yaxşı təmin olunmuş və peşəkar təəssürat bağışlayır. Bildirilir ki, prezidentliyə namizədlər öz kampaniyalarını yalnız şəxsi fondlardan və ianələrdən maliyyələşdirə bilər. Kampaniya məqsədləri üçün hər hansı namizədin xərcləyə biləcəyi maksimum məbləğ 10 milyon AZN-ə qədərdir. Seçkidə iştirak edən namizədlərdən və ya partiyalardan kampaniya vəsaitləri və xərcləri haqqında MSK-ya üç maliyyə hesabatı təqdim etmək tələb olunur. Hesabatlar beş gün ərzində MSK-nın vebsaytında yerləşdirilməlidir.

Seçki Müşahidə Missiyası daha sonra yazır ki, növbədənkənar prezident seçkiləri parlamentdə yerlərin əksəriyyətinə sahib olan hakim Yeni Azərbaycan Partiyasının üstün olduğu siyasi mühitdə baş verir.

Hesabatda qeyd olunur ki, missiyanın görüşdüyü müsahiblərin çoxu seçkinin həqiqətən rəqabətli keçiriləcəyinə inanmadıqlarını bildiriblər: "Onlar iddia ediblər ki, bu seçkidə hazırkı prezidentə rəqib olan namizədlər ya alternativ siyasi platforma təqdim etmirlər, ya da hətta hazırkı prezidenti açıq şəkildə dəstəkləyirlər. Bir çox müsahib DTİHB SMM-ə toplaşma və birləşmə azadlığı baxımından üzləşdikləri qadağalar haqqında məlumat veriblər, onlardan bəziləri davamlı olaraq polis nəzarəti altında olduqlarını bildiriblər".

Sənəddə sonra deyilir ki, seçici siyahılarının dəqiqliyini təkmilləşdirmək üçün seçki administrasiyası ciddi səylər göstərib. Amma SMM-nın bəzi müsahibləri bildiriblər ki, MSK-nın siyahısındakı seçicilərin sayı ilə Dövlət Statistika Komitəsinin səsvermə yaşı olan vətəndaşların statistikasından kifayət qədər azdır. 2017-ci ildən Dövlət Statistika Komitəsinin əhali məlumatları onu göstərir ki, ölkədə səsvermə yaşında olan 7 milyondan çox insan var. MSK isə bu yaxınlarda 5 milyondan çox seçicinin olduğunu açıqlayıb.

Hesabatda prezidentliyə namizədlərə həftədə 3 dəfə İctimai TV-də ödənişsiz efir imkanı yaradıldığı da qeyd edilib və həmçinin bildirilib seçki kampaniyasında namizədlərin resursları bərabər deyil: "Hakim Yeni Azərbaycan Partiyası Missiyaya bildirib ki, onların kampaniyasına kütləvi tədbirlərin keçirilməsi, qapı-qapı gəzib təbliğat aparma, kampaniya materiallarının yayılması və sosial mediadan istifadə kimi tədbirlər daxildir.

Bir neçə prezidentliyə namizəd isə DTİHB SMM-ə bildirib ki, onlar kampaniyaları çərçivəsində maliyyə və insan resurslarının çatışmaması səbəbindən yalnız seçicilərlə kiçik miqyasda görüşlər keçirə və təbliğat apara biləcəklər. MSK isə açıqlamalarında bütün namizədlər üçün bərabər şərait yaradıldılığını və seçkinin ədalətli, qərəzsiz mühitdə keçirildiyini açıqlayıb".

Qeyd edək ki, ATƏT/DTİHB-nun seçki müşahidə missiyası martın 9-dan Azərbaycanda rəsmən fəaliyyətinə başlayıb.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Kəlbəcərin əldən getməsi Azərbaycana baha başa gəldi

## Ərazicə ən böyük strateji rayonumuzun işğalından bu gün 25 il ötür

**Aprelin 2-də Azərbaycanın Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğal edilməsindən 25 il keçir. 1936 kvadratkilometr ərazisi, 60 min əhalisi, 128 kəndi olan Kəlbəcər rayonu Dağlıq Qarabağ müharibəsi başlayandan iki tərəfdən mühasirədə idi, 1992-ci ildə Laçının işğalından sonra Kəlbəcərin daha bir tərəfi bağlandı və rayon 3 tərəfdən düşmən mühasirəsində qaldı. Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız 3500 metr hündürlükdə olan Murov dağı vasitəsilə həyata keçirilirdi.**

Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejimin hərbi birləşmələri Kəlbəcərin mühasirədə qalmasından yararlanaraq Rusiya hərbçilərinin köməyi ilə 1993-cü il aprelin 2-də oranı işğal etdilər. Kəlbəcər uğrunda gedən döyüşlərdə 55 hərbçi və 220 mülki şəxs həlak olub, minlərlə sakin yaralanıb, 321 nəfər əsir götürülüb. Ovaxtkı qiymətlərlə rayonun xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan dəyib.

Azərbaycanın ərazicə ən böyük rayonu olan Kəlbəcər ölkənin bir nömrəli strateji nöqtəsi sayılırdı. Qarabağın "qala qapısı" adlanan Kəlbəcərin işğalı ilə Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejim 3500 metr hündürlükdə olan Murov yüksəkliyini ələ keçirdi, həmçinin Dağlıq Qarabağla Ermənistan arasında ən yaxın quru yolu açılmış oldu. Məhz bu üstünlükləri əldə etdikdən sonra çox keçmədi ki, Ermənistan qısa zamanda Azərbaycanın daha beş rayonunu işğal edə bildi. Hazırda Kəlbəcər rayonundan olan məcburi köçkünlər Azərbaycanın 44 rayon və şəhərində, o cümlədən Bakıda, Sumqayıtda və Gəncədə məskunlaşıblar.

Ölkənin cənub-qərb bölgəsinin zirvəsi hesab olunan Kəlbəcər rayonu dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdə Tərtər çayı vadisində Kiçik Qafqazda yerləşir. Kəlbəcər antik dövrün abidəsi olmaqla, çox zəngin flora və faunası olan bir təbiət muzeyidir. Azərbaycanın ən mənzərəli və şəfa mənbəli rayonlarından biridir, burada tanınmış İstisu və digər çoxsaylı mineral bulaqlar, qızıl da daxil olmaqla, saysız-hesabsız təbii sərvətlər yerləşir. Kəlbəcər təbiətində dünyada nadir sayılan dərman bitkiləri, ağaclar da yer alırdı ki, artıq 25 ildir ermənilər bu təbii sərvətləri talan edirlər.

Ermənilər Kəlbəcərin təkcə təbii sərvətlərini deyil, infrastrukturunu, yaşı min ildən yuxarı olan tarixi abidələrini də məhv ediblər. Rayon işğal olunarkən 140 iri və orta müəssisə, 90 məktəbəqədər uşaq müəssisəsi, 115 ümumtəhsil məktəbi, 1 texniki peşə məktəbi, 107 xəstəxana və tibb müəssisələri, 214 mədəniyyət ocağı ermənilər tərəfindən yandırılıb, darmadağın edilib. Artıq 25 ildir Kəlbəcər rayonunun əhalisi ölkənin 61 rayon və şəhərində məskunlaşıblar. 1993-cü ilin aprelin 30-da BMT Təhlükəsizlik Şurası Kəlbəcər rayonunun qeyd-şərtsiz azad edilməsi, erməni qoşunlarının çıxarılması barədə 4 qətnamə qəbul edib. Lakin bu günədək Ermənistan həmin qətnamələri yerinə yetirməyib. BMT kimi dünyanın ən böyük beynəlxalq qurumu isə verdiyi qətnamələrin yerinə yetirilməsi üçün Ermənistana heç bir təzyiq etmir. İşğalçı Ermənistan isə bundan istifadə edərək daha bir məkrli niyyətini - Kəlbəcərdə erməni əhalinin məskunlaşdırılmasını həyata keçirir. Ermənistan həm öz vətəndaşlarını, həm də Suriyadan köç edən erməniləri Kəlbəcər rayonunda məskunlaşdırır. Eyni zamanda son vaxtlar yayılan xəbərlərə görə, Ermənistan Rusiyanın bəzi şirkətlərini Kəlbəcərin dünyaca məşhur olan təbii sərvətlərini - müalicəvi əhəmiyyətli istisuyu, civə və qızıl yatağını işləməyə cəlb edib. Kəlbəcərin təbii sərvətləri bu şəkildə talan edilir.

Hər il olduğu kimi, bu il də Kəlbəcərin işğalının ildönümü ilə əlaqədar müxtəlif tədbirlər keçirilməsi planlaşdırılır. Şəhidlər Xiyabanında uyuyan şəhidlərin məzarlarının ziyarət olunacaq. Eyni zamanda Kəlbəcər Rayon İcra Hakimiyyətində də rayonun işğalının ildönümü ilə bağlı tədbir keçiriləcək, İcra Hakimiyyətinin binası yaxınlığında bu yaxınlarda inşa edilmiş Şəhidlər Memorial Kompleksi ziyarət ediləcək.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



## Bakıda 6 yaşlı qızını zorlamış ata məhkəmə qarşısında

### "Kəmalə xala, yenə 5 alacam, məni onun yanına aparma, nə olar..."

**Bakı Ağır Cinayətlər Məhkəməsində cinayət işi araşdırılır, müttəhimlər kürsüsündə "ata" əyləşib, zərərçəkmiş isə 6 yaşlı qızcığazdır. Ata öz qızına qarşı seksual hərəkətlər etməkdə ittiham olunur (Virtualaz.org).**

Uşaq anası və balaca bacısı ilə birgə Azərbaycan Uşaqlar Birliyinin sığınacağında yerləşdirilib. Ailə başçısı ananın şikayəti ilə həbs olunub, onun barəsində ilkin olaraq 4 aylıq həbs qərarı çıxarılıb. Məhkəmə isə qərarını bu həftə açıqlayacaq.

"Bu gün məktəbdə 5 almışam. Uşaqlara göstərəcəkdim. Müəllimə məni tərifləyəcəkdi, anam sevinəcəkdi. Kəmalə xanım sığınacaqda bayram edəcəkdi. Axı 5 alan uşaqları tərifləyirlər" - 6 yaşlı bir uşağın yaxınlarına yazdığı ilk məktub bu sözlərlə başlayır.

Birliyin sədri Kəmalə Ağazadə bir neçə yerdən qaralanmış məktubu oxuyur: "Anam axırıncı dərsdə məktəbə gəlib icazə aldı. Axı hələ bir dərsim də vardi, bir dənə də 5 riyaziyyatdan alacaqdım. Heyf. Anamın heç kefi yoxdur. Kəmalə xala da susur. Anam dedi ki, orada əmilər var, səni görmək istəyirlər, tez qayıdacağıq. Bibin, əmin də orda olacaq. Uf. Əmilər. Bəlkə o əmilərdir? Atam haqqında mənimlə gəlib danışanlar?"

"E6 yaşı olmasına baxmayın, dərslərini yaxşı oxuyur. Müəlliməsi deyir ki, yaşıdlarından çox zəkalıdır, artıq sərbəst yazıb, oxumağı bacarır" - K.Ağazadə söyləyir bunu. Hazırda uşaq psixoloji yardım alır. Ağazadənin sözlərinə görə, onun yenidən psixoloji travma almaması üçün hakim bacardığı qədər ehtiyatla davranıb. Amma uşaq 4 aydan sonra atası ilə yenidən görüşdə sarsıntı keçirib, temperaturu 40 dərəcəyə qədər yüksəlib: "Kişinin etirafları hamını şoka salmışdı, uşağın xəstəliyi də bir tərəfdən bizi çox qorxutdu. 6 yaşlı uşaq yetkin insanlar kimi düşünür, başına gələnlərin ağırlığını dərk edir. Məhkəmədə atası ilə qarşılaşanda elə dəhşətlə qışqırdı ki, sakitləşdirməkdə çətinlik çəkdik. Atası onu çox qorxudub".

Yenidən məktubu oxuyuruq: "Əmilərdən biri dedi ki, sən ona tərəf heç baxma. O da sənə tərəf baxmayacaq, söz verirəm sənə. O, sənə tərəf baxsa, onu cəzalandıracağam. Üşüyürəm, qarnım ağrıyır. Kəmalə xala niyə ağlayır? Anam, bibim, əmim, ay da, başqa əmi də ağlayır. Getmək istəyirəm. Ürəyim bulanır. O da ağlayır. Atam".

...Ana uşaqdakı qəribə dəyişikliyi hiss edib. Kəmalə Ağazadə deyir ki, qız atasını görən kimi qusur, şalvarını isladır. Elə bu qəribəlik də ananı qorxuya salıb. Uzun müddət müşahidə aparıb, uşaqla söhbətləşib. Nəhayət, qız baş verənləri danışıb. Bundan sonra ana polisə şikayət edib, kişini saxlayıblar. "Ata məhkəmədə peşman olduğunu dedi, amma onun peşmanlığı nə işə yarayır? Uşaq dərin sarsıntı keçirib, ailə məhv olub. Məhkəmə işi ədalətlə araşdırır, o, cəzasını çəkəcək".

"Kəmalə xala, yenə 5 alacam, məni onun yanına aparma, nə olar" - balacanın yalvarış dolu sözlərinə geri dönürük...

## İcra başçısı Avropaya mühacir göndərməkdə ittiham olundu

### Koalisiya rəhbəri Ramiz Yediyarovu rayonu əşirət qanunları ilə idarə eləməkdə suçladı: "Azərbaycandan kənarda olanların əməlləri ilə sizin əməllərinizdə hansı fərq var?.."

**"İctimai Nəzarət Koalisiyası"nın (İNK) sədri Rasim Məmmədov Gədəbəy İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarovun rayonda sahibkarlara qarşı hərəkətlərini sərt şəkildə tənqid edib. Koalisiya sədri bildirib ki, Ramiz Yediyarovun yerli sahibkarlara qarşı atdığı addımlar ölkə prezidentinin sahibkarlığa qarşı çağırışlarına ziddir, bir çox hallarda böyük qanunsuzluqlarla müşahidə edilir.**

Rasim Məmmədov rəhbəri olduğu Koalisiyanın bir qrup üzvü ilə rayondakı durumu yerində araşdırmaq üçün Gədəbəyə yollanıb. Onun sözlərinə görə, Gədəbəy İcra Hakimiyyətinin rəsmiləri Koalisiya üzvlərinə qarşı özlərini məmur etikasına sığmayan tərzdə aparıblar. O, icra başçısını rayonu əşirət qanunları ilə idarə etməkdə suçlayıb. Bildirib ki, başçı rayonda sahibkarlara qarşı qanunsuzluqlar etməklə iş yerlərinin bağlanmasına nail olur, əhali arasında narazılıq yaradır. Rayonda baş verən qanunsuzluqlarla bağlı İNK rəsmi qaydada prezidentə, 1-ci vitse-prezidentə, Prezident Administrasiyasına, Baş Prokurorluğa, Dövlət Təhlükəsizlik Xidmətinə müraciət ünvanlayıb: "Gədəbəydə sadə və kasıb bir ailənin övladlarının sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının qarşısı cinayətkarcasına dayandırılıb. 6 aya yaxındır ki, Gədəbəydəki sahibkarın fəaliyyəti haqda əksər sayt və qəzetlər yazıblar. Dövlət Təhlükəsizliyi Xidmətinin Gədəbəy şöbəsi, Rayon Prokurorluğu, bütün aidiyyəti qurumlar və orqanlar bu haqda məlumatlandırılıb. Ancaq Ramiz Yediyarov elə bir vəziyyət və şərait yaradıb ki, sahibkarın nəinki qapısı açılmayıb, sahibkar öz əmlakını, texnikasını içəridən götürə bilmir. Öz şəxsi mülkiyyətinə girə bilmir. Bu gün bunu hər kəs görür. Bu gün ölkədə seçkidir. Xalq prezidenti dəstəkləyir. Hətta qapısı bağlanan sahibkar, evi uçurulan vətəndaş da prezidenti dəstəkləyirlər. Niyə görə bu məsələ öz həllini tapmır? Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər qurumlar var. Baxın görün, bir ailənin, bir sahibkarın fəaliyyətinə iflic ediblər. 10 nəfər işçi, hansılar ki, orada işləyirdilər çörəksiz qalıb. Kommunal xərclər, vergilər ödənilmir. Bütövlükdə Azərbaycan mediası bu mövzunu işıqlandırır, amma buna reaksiya verilmir. Yüksək vəzifəli rəsmi şəxslərlə söhbətlərimdə bu məsələni demişəm və bu insanlar açıq-aşkar deyirlər ki, bizim



Ramiz Yediyarova gücümüz çatmır, onlar dövlətə təzyiq edirlər. Yəni onlar artıq ölkənin prezidentinin verdiyi tövsiyə, tapşırıqları, xalqa olan münasibəti heç cürə dəyişmək istəmirlər. Köhnə qaydalarla, bürokratik əngəllərlə çalışırlar".

Rasim Məmmədovun dediyinə görə, Ramiz Yediyarov İNK-in xanım üzvlərini təhqir etməkdən də çəkinmir: "İctimai Nəzarət Koalisiyasında şəhid anaları, milli qəhrəman anaları, tanınmış mətbuat nümayəndələri var. Ramiz Yediyarov iclasda utanmadan deyir ki, heç onları qoymadıq avtobusdan yerə düşsünlər, ayaqları torpağa dəysin. Deyib ki, Rasim Məmmədov küçə qadınlarının arxasında gizlənir. Mən buradan istəyirəm müraciət edəm. Bu gün bir dövlət məmuru, prezidentin səlahiyyətli nümayəndəsi, bir rayonun ağsaqqalı analara qarşı belə fikirlər işlətməsi hansı məntiqə sığır?"

İNK sədri Gədəbəy sakinlərinə müraciət edib: "Əziz Gədəbəy camaatı, sizin gözünüzün qarşısında bir ailəni bədbəxt edirlər. Hamımız da biganəyik. Biz Ramiz Yediyarovun ailəsinə, övladlarına hörmətlə yanaşırıq, onun səviyyəsinə düşüb heç kimin barəsində təhqir işlətmirik. Bildirmək istəyirəm ki, Azərbaycandan kənarda olanların əməlləri ilə Ramiz Yediyarovun əməllərində hansı fərq var?"

Rasim Məmmədov xaricdə olan bəzi şəxsləri şərəfsiz adlandırıb, deyib ki, bunu bilirlər: "Həmin şərəfsizlər Ramiz Yediyarov kimi məmurların əməllərinə görə yetişir. Ramiz Yediyarov, siz Bağırov qardaşlarını həmin o şəxslərə çevirə bilməyəcəksiniz. Bağırov qardaşları son nəfəsinə qədər prezidenti dəstəkləyəcəklər. Çünki onlar bilirlər ki, siz prezidentə xəyanət edən bir insansınız. Heç bir məhkəmə qərarı olmaya-olmaya, rüşvətlə topladığınız pulla Fəxrəddin Bağırovun dükanının qapı-pəncərəsini hördürmüsünüz. 6 aydır ki, onu vergi ödəməkdən qanunsuz olaraq məhrum etmisiniz. 10 vətəndaşı ac qoymusunuz. Sahibkarı borclandırmısınız. Oradakı sement, şpaklyovka materialları zay olub, ən əsası sahibkar öz şəxsi mülkiyyətinə girə bilmir. Cənab prezidentin iqtisadiyat üzrə köməkçisi Natiq Əmirovun imzası ilə o adamlar sahibkarlıq fəaliyyəti ilə məşğuldurlar. Siz kimsiniz, Ramiz Yediyarov? Siz cənab prezidentin göstərişi, onun köməkçisi Natiq Əmirovun imzası ilə 7 ildir fəaliyyət göstərən sahibkarın işini iflic etmisiniz? Yoxsa bu adamları da Avropaya göndərmək istəyirsiniz? Sizin dövlətçilikdən bir xəbəriniz varmı? Sizin pul yığmaqdan, yer satmaqdan başqa hansı bir işiniz var?"

Gədəbəyə səfər edən İNK üzvləri olan xanımlar da icra başçısı Ramiz Yediyarovun qanunsuz əməllərini tənqid ediblər. Bildiriblər ki, prezident seçkilərindən sonra Ramiz Yediyarova qarşı mübarizələrini davam etdirəcəklər.

Qeyd edək ki, 2017-ci ilin oktyabrında Gədəbəyin icra başçısı Ramiz Yediyarov sahibkar Fəxrəddin Bağırovun obyektinin qapısını bağlatdırıb. Başçı sahibkarın obyektinin qarşısını daş tökdürərək qapı-pəncərəsini hördürüb. Bu haqda "Yeni Müsavat"ın 23 noyabr 2017-ci il tarixli sayında "Gədəbəyin icra başçısı "Müsibəti-Fəxrəddin"i yenidən "yazır" http://musavat.com/news/gedebeyin-icra-bascisi-musibeti-fexreddin-i-yeniden-yazir-reportaj-fotolar-video_485354.html ttp://musavat.com/news/gedebeyin-icra-bascisi-musibeti-fexreddin-i-yeniden-yazir-reportaj-fotolar-video_485354.html reportaj təqdim etmişdik. Sahibkarın işi iflic duruma salınıb, özünü isə rayondan didərgin salıblar. Sahibkar müxtəlif dövlət orqanlarına müraciət etməklə başçının qanunsuz əməllərinə son qoyulmasını, sahibkarlıq fəaliyyətinin davam etdirilməsinin təmin olunması üçün tədbirlər görülməsini xahiş edib.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 69 (6958) 2 aprel 2018



# Tarixə düşən "4 günlük" aprel savaşının əsas dərsi

## Blits-qələbəmizdən 2 il ötdü; hərbi zəfəri diplomatik zəfərə çevirə bildikmi? Ekspertlərdən maraqlı rəylər...

**2016-cı ilin aprel döyüşlərindən iki il keçir. 2 il öncə işğalçı Ermənistan ordusunun təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin bölmələri qısamüddətli, lakin çox səmərəli hərbi əməliyyat keçirdi. Düşmən ordusu pərən-pərən salındı, işğalçı ölkənin yüzlərlə hərbçisi məhv edildi, bir neçə mühüm mövqe, ərazilər işğaldan azad olundu.**

Qəhrəman hərbçilərmizin, şəhidlərimizin fədakarlığı nəticəsində Azərbaycan əhəmiyyətli bir əraziyə hərbi nəzarəti bərpa etdi. Ermənistan ordusuna isə ciddi hərbi və mənəvi zərbə vuruldu. 4 gün davam edən hərbi əməliyyatlar Ermənistan dövlətini silkələmişdi, dünyada böyük əks-səda yaratmış və Rusiyanın da narahatlığına səbəb olmuşdu. Məhz Rusiyanın danışıqlara başlaması və ard-arda müraciətlərindən sonra Azərbaycan tərəfi hərbi əməliyyatları dayandırmalı oldu.

Qısamüddətli aprel savaşı artıq tarixə düşüb. Bu hadisənin geosiyasi, diplomatik, hərbi və siyasi-ideoloji nəticələri ekspertlər tərəfindən aktiv müzakirə olunur. "İki il öncə ordumuzun əldə etdiyi üstünlüyü diplomatik savaşda da mümkün oldumu" sualı isə bu gün daha aktual səslənir.

Azərbaycan Naminə İctimai Forumun (ANİF) prezidenti, Beynəlxalq və Strateji Araşdırmalar Mərkəzinin sədri Eldar Namazov "Yeni Müsavat"a müsahibəsində bildirdi ki, Azərbaycan ordusu aprel döyüşləri zamanı Azərbaycan diplomatiyası üçün yeni durum yaradıb, yeni bir imkanlar açıb: "Təəssüflər olsun ki, Azərbaycan diplomatiyası hələ ki, ordumuzun onun üçün yaratdığı imkanlardan səmərəli istifadə edə bilməyib. Aprel döyüşlərindən sonra Azərbaycan diplomatiyası fərqli olmalı idi. Azərbaycanın hərbi əməliyyatları dayandırıb, yenidən danışıqlara başlamasının əvəzində müəyyən bir şərtlər qoyulmalı idi. Eyni zamanda həmsədr ölkələr də işğalçını həmin ərazilərdən çıxartmağa inandırmaq öhdəliyini öz üzərinə götürməli idi və diplomatik yolla biz bu təzyiqləri görməli idik. Təəssüf ki, iki il keçsə də həmin imkanlardan hələlik istifadə olunmayıb və mənim fikrimcə, bu, yanlış yanaşmadır. Azərbaycan aprel döyüşləri zamanı bütün dünya ictimaiyyətinə nümayiş etdirdi ki, diplomatik yolla torpaqlar azad olunmasa, güc tətbiq edib ərazilərini azad etməyə hüququ da, iradəsi də var. Bu mövqe indi də öz qüvvəsində qalır. Sözsüz ki, danışıqlar bir nəticə verməsə, Azərbaycan hərbi əməliyyat keçirib, Dağlıq Qarabağda öz suverenliyini bərpa etmək üçün həm beynəlxalq hüquq normalarından istifadə edə bilər".

Politoloq Elçin Mirzəbəyliyə görə, aprel döyüşlərində əldə olunan qələbənin diplomatik savaşda hələ ki, əldə edə bilməməyimizin bir sıra obyektiv və subyektiv səbəbləri var: "Obyektiv səbəblər ATƏT-in Minsk qrupuna həmsədrlik edən dövlətlərin, xüsusilə də Rusiyanın münaqişənin tənzimlənməsi ilə bağlı mövqeyi, mövcud status-kvonu-işğal faktını nəyin bahasına olursa olsun qoruyub saxlamaq niyyəti, hərbi-siyasi müttəfiqi Ermənistanı himayə etməsi, davamlı sülhü özünün geosiyasi maraqlarına təhlükə görməsi ilə bağlıdır. Bu sıraya Qərb dövlətlərindəki erməni diasporu və lobbisi, mədəni və dini təəssübkeşlik faktoru, münaqişənin Azərbaycana və Ermənistana təzyiq üçün dərhal reaksiya verilən işlək mexanizmə çevrilməsini də əlavə etmək olar. Subyektiv tərəflər isə şübhəsiz ki, Azərbaycan Xarici İşlər Nazirliyinin və diplomatik korpusun fəaliyyəti ilə bağlıdır. Bu sırada bir məsələyə xüsusi diqqət ayrılmasını vacib hesab edirəm. Azərbaycanın dövlət olaraq həyata keçirdiyi bir sıra uğurlu enerji və nəqliyyat layihələrini, ölkədə və ayrı-ayrı ölkələrdə Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən tədbirləri, üçtərəfli və daha geniş əməkdaşlıq formatlarını Xarici İşlər Nazirliyinin fəaliyyəti ilə bağlamaq kökündən yanlışdır. Belə qlobal layihə və tədbirlərin gerçəkləşməsində başda prezident və onun administrasiyası olmaqla dövlətin bütün əlaqəli təsisatları, eyni zamanda müstəqil qeyri-kommersiya təsisatı kimi Heydər Əliyev Fondu iştirak edir. Xarici İşlər Nazirliyinin fəaliyyətini dəyərləndirmək üçün əsasən diplomatik nümayəndəliklərimizin ayrı-ayrı ölkələrdəki fəaliyyətinə diqqət yetirmək lazımdır. Doğrudur, son illərdə uğurlu fəaliyyət göstərən, dislokasiya olunduqları ölkələrin siyasi dairələri, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri ilə sıx əlaqələr quran səfirliklərimiz var. Amma onların sayı bir o qədər də çox deyil. Diplomatik nümayəndəliklərimizin fəaliyyətində çeviklik, dinamizm çatışmır. Bütün bunlar da son nəticədə ümumi işə təsirini göstərir".

Politoloq Elşən Mustafayev isə hesab edir ki, hər zaman diplomatik sahədə hədəf, fikir formalaşdırma dünyanın siyasi və iqtisadi gücləri ilə təmaslara istiqamətlənir: "Paralel olaraq dövlətlərin aktiv insanlarına da doğru dürüst məlumatların çatdırılmasına çalışılır. 2 aprel döyüşləri zamanı və sonrası bu istiqamətdə müəyyən işlərin görülməsinə cəhdlərin şahidi olduq. Bunun nə dərəcə effektli olub-olmamasını bir kənara qoyaraq demək istəyirəm ki, Qarabağ problemi elə bir problemdir ki, bununla bağlı 25 ildən artıqdır dünyada bütün dövlətlərdə, beynəlxalq təşkilatlarda kifayət qədər məlumat var, hətta kimin haqlı tərəf olduğunu da yaxşı bilirlər. O ayrı məsələdir ki, müxtəlif səbəblərdən problemə yanaşmalarda ikili standartlar var. Bu münasibəti tək diplomatik fəaliyyətlərlə dəyişmək mümkün deyil. Əgər Azərbaycan uğurlu hərbi əməliyyatlara başlasa Rusiya faktoruna xüsusi yanaşma şərtilə heç kim bizi ciddi olaraq qınamayacaq. Doğrudur, müəyyən bəyanatlar, iradlar ola bilər, amma bundan o yana getməyəcəklər. Necə ki, 2 aprel döyüşləri zamanı dediyim növbətçi bəyanatlar səsləndirildi, onunla da hər şey bitdi. Beynəlxalq təşkilatlarda olan zaman qeyri-rəsmi söhbətlərdə kifayət qədər səlahiyyətli siyasətçilər belə deyirlər ki, əgər siz sabah hərbi əməliyyatlara başlayıb torpaqlarınızı azad etsəniz, biz məsələni sülh yolu ilə deyil hərb yolu həll yoluna üstünlük verdiyinizə görə ən uzağı sizi qınayacağıq, bu addımı pisləyəcəyik və nəticəni də qəbul edəcəyik. 2 aprel hadisələri zamanı az da olsa ərazimizi qaytarmağımız faktiki olaraq status-kvonu dəyişməklə Ermənistan əlverişsiz mərhələyə daxil oldu. Bununa belə sonradan ona heç bir təzyiq olmadı. Deməli qəliblər mühakimə olunmurlar deyimi hər zaman işləyir. Ona görə də diplomatlar və hərbiçilər paralel şəkildə öz işlərini görmədilər. Bu zaman hərbiçilərimiz işlərinin öhdəsindən gələcəklər, amma diplotlarımızın bu işlərdə səriştəsi, gücü, xüsusilə də istək və iradəsi nə şəkildə olacaq, açığı bu barədə heç nə deyə bilmərəm".

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı isə bildirdi ki, diplomatiyanın uğuru güc amili ilə bağlıdır: "Güclə əldə olunan nəticə diplomatiya üçün geniş imkanlar açır, əldə olunmuş nəticənin möhkəmləndirilməsini asanlaşdırır. Gücsüz diplomatiya heç nə edə bilməz. Qədim Roma deyiminə görə, bütün sülhlərə gedən yol müharibədən, yəni gücdən keçir. Aprel döyüşləri ciddi bir hadisə oldu. Təbii ki, hələ ki, yekun sülhdən danışmaq olmazı, amma xeyli irəliləyişə nail olmaq olardı. Təəssüf ki, heç nə edilmədi. Bizim XİN-nin diplomatiyası yox dərəcəsindədir, Elmar Məmmədyarov ən uğursuz nazirdir. Biz illərdir deyirik. Tarixdə maraqlı xarici işlər nazirləri olub. Məsələn, Krım müharibəsindən sonra Rusiyanı çox ağır vəziyyətdən çıxaran xarici işlər naziri Aleksandr Qorçakov olub. Azərbaycanın xarici işlər naziri hökmən dəyişdirilməlidir. Bu, çox vacibdir. Şəxsi təcrübəmizdən də deyə bilərəm, bir dəfə adamlarımız hazırladığımız Qarabağa dair kitabları XİN-ə aparmışdıq, qapıya çıxan nazirlik təmsilçisi demişdi ki, nazirimiz göstərişi var, siz ekstremist təşkilatsınız, sizin kitablarınız bizə lazım deyil. Təsəvvür edirsinizmi, bu şəxs xarici siyasətimizə rəhbərlik edir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



Ramiz Məmmədov

# Coğrafiya İnstitutunun direktoru cinayət məsuliyyətinə cəlb oluna bilər

## Hüquqşünas: "Onun jurnalistləri söyməsi xüsusi ittihamlı işdir"

**Ötən həftə Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru Ramiz Məmmədovun modern.az saytının jurnalistini təhqir etməsi və ümumilikdə jurnalistlər haqqında aşağılayıcı ifadələr işlətməsi ölkə gündəmində geniş müzakirə mövzusu oldu. Qeyd edək ki, jurnalist küləkli hava şəraitinin hansı hallarda daha ciddi təhlükə yaratdığı barədə sual ünvanlayıb, AMEA-nın alimi isə əvəzində "Azərbaycanda bir dənə də olsun jurnalistin olmadığını" söyləyib, onları "bezdarnı", "savadsız", "heç nəyə yaramayan" adlandırıb.**

Qeyd edək ki, məsələ ilə bağlı media kapitanları öz tənqidlərini bildirib. Mətbuat Şurasının sədri Əflatun Amaşov da məsələyə mövqeyini açıqlayaraq, alimin davranışını biabırçılıq adlandırıb: "Kütləvi informasiya vasitələrində Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru Ramiz Məmmədovun jurnalistləri təhqir etməsinə dair məlumatlar yayılıb. Mən şəxsən hadisənin təfərrüratları, necə və hansı şəraitdə baş verməsinə dair dəqiq bilgiyə malik deyiləm. Ancaq hər bir halda hesab edirəm ki, yazılanlar doğrudursa, yəni peşə fəaliyyətini yerinə yetirən jurnalist Ramiz Məmmədova hansısa məsələ ilə əlaqədar fikir öyrənmək üçün müraciət edibsə, qarşılığında söyüş və təhqir eşidibsə, bu, bir elm adamı üçün qətiyyən yolverilməzdir, qəbuledilməzdir, biabırçılıqdır, alimə yaraşmayan hərəkətdir".

Əflatun Amaşov Milli Elmlər Akademiyasının rəhbərliyinin bununla bağlı ciddi ölçü götürəcəyinə əmin olduğunu bildirib.

"Zerkalo" qəzetinin təsisçisi və baş redaktoru Elçin Şıxlı mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında son zamanlarda jurnalistlərin tez-tez təhqir olunduğunu vurğulayıb: "Təəssüf ki, son zamanlarda belə hallara tez-tez rast gəlirik. Bu, yaxşı nəticə deyil və səbəblərini araşdırmalıyıq. Niyə bu günə qədər jurnalistlər haqqında təhqiramiz ifadələr işlədilmirdi, amma indi hətta AMEA-nın Coğrafiya İnstitutunun direktoru belə ifadələr səsləndirir? Belə bir atalar sözü var, "Qurunun oduna yaş da yanır".

E.Şıxlıya görə savadlı, normal jurnalistlərlə yanaşı, mediada savadsız əməkdaşlar da var: "Onlar peşəkar, peşəsini sevən, savadlı insanların da adını batırır. Söhbət əslində bundan gedir. Görünür, Coğrafiya İnstitutunun direktorunun da bəxtinə jurnalist peşəsinə aid olmayanlarla münasibət qurmaq nəsib olub.

Lakin eyni zamanda alim nə olursa olsun, öz ifadələrinə diqqət etməlidir. Əgər nədənsə narazıdırsa, çox mədəni şəkildə öz fikrini ifadə edə bilər. Hazırda jurnalistlərin də bəzi alimlərin savadlı olmasına şübhəsi var. Çünki indi pulun hesabına dissertasiyalar yazılır. Ərizə yazanda 5 cümlədə 25 səhv buraxan adamlar indi elmlər doktoru, elmlər namizədi və daha yüksək elmi adlar qazana bilirlər. Ona görə də bizim bəzi alimimiz də, qeyd etdiyimiz savadsız jurnalistimizə taydır".

Elçin Şıxlı adı çəkilən alimin cəzalandırılmasından da söz açıb: "Əgər doğrudan da onun ifadələrində təhqiredici ifadələr varsa, jurnalistlər onu məhkəməyə verə bilər. İlk öncə isə əgər Mətbuat Şurasının sədri Əflatun Amaşov deyibsə ki, həmin alim cəzalandırılmalıdır, o, ilk öncə alimlə görüşüb, söhbət etməlidir".

Hüquqşünas Vüqar Babayev isə qeyd edib ki, mətbuat vasitələrində kimisə təhqir etmək cinayət məsuliyyəti yaradır: "Bu, xüsusi ittihamlı işdir. Bundan başqa həmin şəxsə qarşı şərəf və ləyaqətin də təhqir olunması ilə bağlı da mülki ittiham qaldırmaq mümkündür. Ümumilikdə əgər jurnalist peşəsinin daşıyıcıları təhqir olunubsa, özünü təhqir olunmuş hesab edən jurnalist də məhkəməyə müraciət edib, bununla bağlı qanuni tədbir görülməsini xahiş edə bilər".

Qeyd edək ki, CM-nin 147-ci maddəsinə əsasən, kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma üç yüz manatadək min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya on altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

❑ **Xalidə Gəray, Musavat.com**



# Ələ düşən fürsət və ya bu gün tezdirsə, sabah gec olacaq

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Ermənistan İsraildəki səfirini dəyişdi. Əvvəlki səfir Armen Melkonyanı başqa bir Armen əvəzlədi, budəfəki Smbatyandır. Təhsilinə fortepianodan başlayan Smbatyan uzun müddət İrəvanın Rusiyada təmsil edir, son illərdə Ermənistan prezidentinin məsləhətçisi işləyib.**

Göründüyü kimi, İrəvan Təl-Əvivlə münasibətlərə olduqca ciddi önəm verir və buraya sıradan bir diplomatı səfir yollamır. 2007-ci ildə həmkarı Polad Bülbüloğlu ilə birgə Bakı-Şuşa-İrəvan marşrutu üzrə səfər edən Smbatyan diplomatiya, münaqişə məsələlərində də kifayət qədər "bişmiş" birisidir.

Bu arada qeyd edək ki, Sərkisyan ölkəsi üçün vazkeçilməz müttəfiq olan Fransadakı səfiri də əvəzləyib. Bu ölkəyə Hasmik Dolmacyan göndərilib. Serj Sərkisyan həm də prezidentliyinin son həftəsində öz kadrlarını səfirliklərdə yerləşdirməklə məşğuldur, sonra lazım olar deyə. Ancaq təkcə budurmu məqsəd?

İsraildəki səfir məhz aprel döyüşlərinin ildönümü ərəfəsində əvəzləndi. Hakimiyyətinin ən böyük uğursuzluğu və məğlubiyyəti olan Serj Sərkisyan həmin döyüşləri ölənədək unutmayacaq. İşğalçı ölkə həmin döyüşlərdən sonra absurda gedərək, hətta Təl-Əvivə nota da vermişdi, Azərbaycanın İsrail istehsalı olan dronlardan istifadəsinə görə... Ermənistan aprel savaşında İsrail mütəxəssislərinin iştirakı iddiasını irəli sürdü, Təl-Əvivdən Azərbaycana silah satmamağı tələb etdi. Bütün cəhdlər boşa çıxdı. Azərbaycanı strateji müttəfiq kimi olduqca yüksək qiymətləndirən İsrail dövləti daha müasir silahların real alıcısı ilə əməkdaşlığa üstünlük verdiyini nümayiş etdirdi, işğalçı, ac-yalavac, ianə hesabına yaşayan rus köləsinə deyil.

Erməni deputat Qaqik Minasyan Təl-Əviv səfərindən sonra etiraf etmişdi ki, istədiklərini ala bilməyiblər. İsrailin müdafiə naziri Liberman açıq şəkildə "biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və erməni ordusunun Dağlıq Qarabağı işğal etməsinə qarşıyıq" deyib onu pərt eləmişdi. Ardınca İsrail parlamenti saxta "erməni soyqırımı"nı tanımaqdan imtina etdi.

Hətta Azərbaycanın qardaş Türkiyə ilə eyni mövqedən çıxış etməsinə, Şərqi Qüdsü Fələstin paytaxtı kimi tanımasına rəğmən, İsrail Bakının bölgədəki rolunu yüksək qiymətləndirib də, onunla əlaqələrə xələl gətirəcək addım atmadı.

Lakin göründüyü kimi, Ermənistan yeni cəhdlər göstərməkdədir və münasibətlərdə revanş əldə etməyə çalışır. Eyni zamanda son təyinatı keçmiş səfirin cəzalandırılması kimi də qiymətləndirmək olar. Baş nazir olmaq istəyən Sərkisyan həm də demək istəyir ki, apreldə başlarına od yağdıran "yaşıl əjdaha"ların Bakıya satılmasına görə "suç keçisi" keçmiş səfirdir...

Ümumilikdə düşmən uğursuzluqlarına rəğmən İsraillə əlaqələrə xüsusi önəm verir. Bu isə yenidən Azərbaycanın İsraillə əlaqələrini gündəmə gətirir. Bakı və Təl-Əviv münasibətlərindən danışarkən səfirlik məsələsi istər-istəməz yada düşür.

Aprelin 9-da Azərbaycan və İsrail arasındakı diplomatik əlaqələrin 26-cı ildönümü tamam olacaq. İsrail müstəqilliyimizi elan etdiyimizdən iki ay sonra - 1991-ci ilin 25 dekabrında bizi müstəqil dövlət olaraq tanıyıb! İndi bu ölkədə səfirliyimizin olmaması istər-istəməz suallar yaradır. Dostluq qrupunun rəhbəri Yevda Abramov özü də etiraf edir ki, vaxtaşırı ortaya çətinliklər çıxır, səfirin olmaması səbəbindən. Bu mənada İsraildə səfirliyin açılması artıq zərurətə çevrilib.

Ola bilsin bəziləri yeni mərhələyə adlamış Azərbaycan-İran münasibətlərini xatırladıb "indi yeri deyil" desin. Nəcə ki, illər boyu İsraildə səfirlik açıa bilməməyimizə əsas əngəl kimi İran amili göstərilib. Ancaq gərək İran Ermənistana qapılarını çoxdan bağlayaydı. Di gəl, Tehran bir dəfə də olsun ermənilərə "İsraildə niyə səfiriniz var" iradını tutmayıb. Biz İsrail ordusunu Qarabağa çağırmırıq ki, səfirlik açırıq da.

Odur ki, "bu gün tezdirsə, sabah gec ola bilər" prinsipi ilə hərəkət etməyimiz zəruridir. İranla normal münasibətlərin olduğunu Həsən Ruhaninin Bakı səfərində də görürük. Ermənistan iki müsəlman qonşunun münasibətlərini poza bilmədi. Üstəlik, Bakı İrana yarım milyard kredit ayırdı. Deməli, Tehranla yüksək əməkdaşlıq şəraitində İsraillə də yarımçıq qalmış işlərimizi başa çatdırmaq üçün unikal imkan yaranıb. İran bunu anlayışla və reallıq olaraq qarşılayacaq. Tehranın bəhanələrini kəsmək üçünsə...İran vətəndaşlarının Azərbaycana vizasız gəlişi barədə qərar vermək, balans yaratmaq olar.



# Elmar Məmmədyarova istefa tələbləri artır - seçkidən sonra XİN rəhbəri dəyişə bilər

**Xəbər verdiyimiz kimi, Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı Milli Məclisin 30 martda keçirilən iclasında xarici işlər naziri Elmar Məmmədyarovu istefa verməyə çağırıb. Deputat fikirlərini zəruri edən bir neçə arqument önə çəkib. F.Ağamalı bildirib ki, Xarici İşlər Nazirliyi Azərbaycan prezidentinin yürütdüyü hücum diplomatiyasına adekvat işləmir.**

Deputatın istefa çağırışının təsadüf olmadığı, 11 apreldəki növbədənkənar prezident seçkilərindən sonra Məmmədyarovun formalaşacaq yeni hökumətdə yer almayacağı qeyd olunur. F.Ağamalı "Yeni Müsavat"a açıqlamalarına bu fikrə gəlməsini bir neçə səbəblə izah etdi: "Öncəliklə deyim ki, bu, sosial sifariş olaraq gündəmdədir. Tək mənim deyil, müxtəlif şəxslərin dilindən də bu fikirlər səslənir. Mən bir ay öncə mətbuata verdiyim açıqlamada Elmar Məmmədyarovun fəaliyyətini tənqid etmişdim. O zaman KİV-lərdə belə bir xəbər getdi ki, ermənilər Kəlbəcər istiqamətindən işğal olunmuş digər torpaqlarımıza yeni yollar çəkirlər. Eyni zamanda, həm yollar ətrafında, daha münasib yerlərdə ticarət obyektləri, yaşayış evləri tikdikləri xəbərləri yayılmışdı. Ermənilərin işğal olunmuş torpaqlarımıza köçürülməsi məsələsinin də gündəmdə olduğu deyildi. Suallara cavab verdiyim zaman fikrimi çox sərt şəkildə ifadə etdim ki, bunlara Xarici İşlər Nazirliyi öz təpkisini göstərmir. İndiyə qədər Elmar Məmmədyarovun tutmuş olduğu yumşaq mövqe ermənilərin bu hərəkətlərinə kifayət qədər rəvac verir. Digər tərəfdən, Minsk Qrupunun fəaliyyəti də hamımıza bəllidir. Lakin onlarla görüşlərdə nazir kimi onun sərt mövqeyinin şahidi olmamışıq. Ölkə prezidentinin işğal olunmuş torpaqlarımızı azad etməklə bağlı çox sərt mövqeyi ortadadır. Yaxınlarda keçirilən tədbirlərdə prezident İrəvan, Zəngəzur və digər ərazilərin Azərbaycanın tarixi torpaqları olduğunu bir daha önə çəkdi, həmin torpaqlara qayıdışımızın vacibliyini vurğuladı, o torpaqlarımıza qayıdacağımızı çox böyük nikbinliklə qeyd etdi. Bunları ölkə prezidenti edir, bəs nədən Elmar Məmmədyarov nazir olaraq bu sərt mövqeyi öz fəaliyyətində əsas götürmür? Bunların hamısı hər kəsə bəllidir. Məmmədyarovun fəaliyyəti bu günün tələblərinə cavab vermir. İşğal olunmuş torpaqlarımızın azad edilməsinə cavab verən fəaliyyət aparılmır. Martın əvvəllərindəki fikirlərimdən sonra ayrı-ayrı siyasətçilər, politoloqlar tərəfindən bu və ya digər şəkildə mətbuatda bu tipli açıqlamalar getdi. Sizin qəzetinizdə Eldar Namazovun müsahibəsində belə fikirlərlə tanış oldum. Cəmiyyətin düşündüklərini Milli Məclis səviyyəsində gündəmə gətirdim. Yəqin etdim ki, Elmar Məmmədyarovun xalqımız qarşısında ən böyük xidməti o olardı ki, öz təşəbbüsü ilə istefaya getsin. Görünən odur ki, Elmar Məmmədyarov bu işin öhdəsindən gələ bilmir. Onunla mənim aramda heç bir problem yoxdur və ola da bilməz. Ümumiyyətlə, heç bir məmur, nazirlə şəxsi problemlərim yoxdur. Ölkə prezidentinin siyasətinin həyata keçməsi, ona dəstək verməyim baxımından bu məsələləri önə çəkirəm. Nazirlərin işdən azad olunmaları və yenilərinin təyin olunması ölkə başçısının səlahiyyətindədir. Bu səlahiyyətlərə hörmətlə yanaşmağa borcluyuq".



**Fəzail Ağamalı: "O, bu işin öhdəsindən gələ bilmir"**



**Elxan Şahinoğlu: "Hər yaxşı səfirdən uğurlu xarici işlər naziri çıxmaz"**

Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da XİN rəhbərinin gedişinin vacibliyini vurğuladı: "Prezident seçkisindən sonra bəzi nazirlərin dəyişdiriləcəyinə dair xəbərlərin sayı artır. Bu belə də olmalıdır, hakimiyyətə yeni nəfəs lazımdır, bunu dövlət başçısı da anlayır, təsadüfi deyil ki, elə son illərdə postlarında şişən nazirlər gənc kadrlarla əvəzləndi. Seçkidən sonra bu prosesin bir az daha sürətlənəcəyini düşünürəm. Dəyişməli olan nazirlər sırasında xarici işlər naziri də olmalıdır. Çünki onun verdiyi açıqlamalar siyasi ekspertlər və cəmiyyətdə birmənalı qarşılanmır. Elmar Məmmədyarov uzun illər diplomatiya sahəsindədir, müxtəlif ölkələrdə çalışıb, səfir işləyib. Ancaq hər yaxşı səfirdən uğurlu xarici işlər naziri çıxmaz. Səfir ölkəsindən aldığı təlimatları yerinə yetirir, daha çox sənədlərlə işləyir, qonaq qarşılayır və yola salır. Əlbəttə, səfirdən səfirə də fərq var. Elə səfir var ki, kabinetdən bayıra çıxmır, gününü keçirir, eləsi də var ki, çalışdığı ölkədə nüfuz sahibinə çevrilir ki, bu iki ölkə arasındakı münasibətlərin inkişafına xidmət edir. Mən istisna etmirəm ki, Elmar Məmmədyarov ikincilərdən olub. Ancaq xarici işlər naziri postu tam fərqlidir, həm işgüzar olmalı, hər də yaradıcı fikirlərlə çıxış etməlidir. Xarici işlər nazirin fikrini səlis və aydın ifadə etmək bacarığı da olmalıdır. Bəzən Elmar Məmmədyarov Azərbaycan dilində elə fikir deyir ki, bir neçə dəfə oxuduqdan sonra onun nə dediyini anlaya bilirsən. Bəlkə də bu səbəbdəndir ki, Elmar Məmmədyarov yerli media orqanlarına müsahibə vermir, daha çox rusdilli və ingilisdilli nəşrlərə müsahibə verir. Xarici işlər nazir postu onun media ilə sıx əlaqəsini diktə edir. Ancaq biz bunu görmürük. Azərbaycanın əsas problemi torpaqlarımızın işğalının davam etməsidir. Bu durumu dəyişmək üçün xarici işlər nazirinin üzərinə böyük yük düşür. Nazir açıqlama verməklə işini bitmiş hesab etməməlidir. Məsələn, erməni separatçılarının lideri gah Paris, gah da Vaşinqtonda peyda olur. Elmar Məmmədyarov bunun qarşısını almaq üçün indiyə qədər nələr edib? Niyə Dağlıq Qarabağın azərbaycanlı icmasının liderinin eyni ölkələrə səfərləri və görüşləri təşkil olunmur? Yox əgər Elmar Məmmədyarov hesab edirsə ki, Dağlıq Qarabağın azərbaycanlı icmasının lideri bu vəzifəni yerinə yetirmək qabiliyyətində deyil, onda bu haqda prezidenti məlumatlandırmalıdır. Əgər o bunu da etmirsə, demək o "mənə nə var" prizmasından çıxış edir. Elmar Məmmədyarov uzun illərdir deyir ki, Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı substansiv danışıqlar aparılmalıdır. Aparılmır, indi nə edək? Elə "substansiv danışıqlar aparılmalıdır" deməklə deyil ki. Ondan başqa heç kim bu ifadəni dilə gətirmir. Ermənistan istəmir və böyük dövlətlər İrəvanın işğalçı siyasətinə təsir etmir. 2016-cı ilin aprel savaşından sonra belə bir inam var idi ki, beynəlxalq aləm, o cümlədən həmsədr dövlətlər Azərbaycanın gücünü gördülər və əgər müharibənin bir daha təkrarlanmasını istəmirlərsə, Ermənistan hakimiyyətinə təsir edəcəklər. Etmədilər, İrəvanın xətrinə dəymədilər və Azərbaycan Xarici İşlər Nazirliyi bu durumu xeyrimizə dəyişmək üçün gücsüz qaldı. Daha sonra Elmar Məmmədyarov həmsədrlərin Krakov görüşündən sonda dedi ki, "kreativ təkliflər var". Ancaq üstündən aylar keçib, nə ortada Məmmədyarovun dediyi "kreativ təkliflər" var, nə də danışıqlarda irəliləyiş qeydə alınıb".

❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"

# “Seçkidən sonra prezident hökuməti yenidən formalaşdıracaq”

## Siyavuş Novruzov: “Hansı formada istəyirlərsə, o formada söhbətə hazırıq”



**Prezidentin səlahiyyətli nümayəndəsi:**
“Kreditlərlə bağlı araşdırmalar gedir, tapşırıq verilib... və nəticə etibarilə qərarlar qəbul olunacaq”

“Baxış bucağı”

**YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov “Yeni Müsavat”ın suallarını cavablandırıb. Prezident seçkisində hakim partiyanın namizədinin səlahiyyətli nümayəndəsi olan həmsöhbətimiz işinin çoxluğu səbəbindən bazar günləri də işləməsinə baxmayaraq, müsahibə üçün vaxt ayırdı, gündəmdəki məsələlərdən danışdıq. Müsahibəni təqdim edirik:**

***- Siyavuş bəy, əvvəllər adətən, mitinqləri hakim partiyanın eyvanından, ya da aksiya keçirilən digər ərazilərin kənarından izləyib, münasibət bildirərdiniz. Maraqlıdır, “Məhsul”dakı son mitinqi haradan izlədiniz?***

- Artıq onların mitinqləri hər kəsə bəllidir, əhəmiyyətini itirib. Mən həmin vaxt işdəydim, amma məlumatlarım var. Diqqətimi çəkən xüsusi bir məqam olmadı. Eyni şeylər, təkrarçılıq, neçə illərdir davam edən məsələlər, eyni kontingent. Say da eyni, hələ bəlkə bir az da əvvəlkindən az idi. İnsanların artıq etimad məsələsi var da. Ora yığışanlar əqidə, ideya, demokratiya və s. baxımından gəlməmişdilər. Sadəcə olaraq bu və digər formada hərə öz probleminin həll yolunu orda axtarır.

***- Hakim partiya o mitinq iştirakçılarının bir qrupunu ayrıca dinləyə, problemləri ilə maraqlana bilərmi?***

- Ordakı bəzi insanlar bəllidirlər. Görürsən ki, müəyyən hissəsi islamçılardır, müəyyən hissəsi Avropaya inteqrasiya tərəfdarıdır, müəyyən hissəsi bankdan kredit götürüb borclarını qaytara bilməyənlərdir. Bir az qohum-əqrəbadır.

***- Amma bank kreditləri məsələsinin özü çox ciddi mövzudur. Məlumata görə, ölkədə hər dörd nəfərdən biri banka borcludur.***

- Bir var, kredit götürüb hansısa iş qurmaq, yaxud fermer təsərrüfatı yaratmaq. Bir də var bankdan kredit götürüb, özünə maşın alıb. Məsələn, əgər bunun imkanı 10 minlik maşına çatırsa, kreditə girib, 50 minlik maşın alıb. Bununla digər adamın problemi eyni deyil. Yaxud evlə bağlı kredit götürənlər var. Bəli, bunlar tamam başqa kateqoriyadır.

***- Spiker Oqtay Əsədov da demişdi ki, bank kreditləri ilə bağlı araşdırmalar aparılır. Gözləmək olarmı ki, seçkidən sonra bank kreditləri ilə bağlı güzəştli qərarlar veriləcək?***

- Bu məsələlər araşdırılır, bəli. Bir məsələn, kredit götürüb toy edib, başqası da kredit götürüb sanatoriyaya gedibsə, bununla kredit götürüb fermer təsərrüfatı yaradan, yaxud təbii fəlakət nəticəsində fermer təsərrüfatına ziyan dəyməsi səbəbindən kreditini qaytara bilməyən insanlara fərqli yanaşmaq lazımdır. Araşdırma komissiyası var. Azərbaycanda kreditlərin böyük hissəsi əsasən, nəqliyyat vasitələri ilə əlaqədardır. Bununla bağlı araşdırmalar gedir, tapşırıq verilib, həm özəl, həm də dövlət banklar hazırda məşğuldurlar. Son vəziyyət məruzə olunacaq və nəticə etibarilə qərarlar qəbul olunacaq. Ancaq burada təkcə dövlətdən söhbət getmir. Bankların əksəriyyəti özəl, xüsusi mülkiyyətdədir. Bunlarla da hər hansı razılıq olmalıdır ki, həm bank gələcəkdə öz fəaliyyətini davam etdirsin, həmçinin kredit götürən insanın vəziyyəti yüngülləşdirilsin.

***- Sizin bayram ərəfəsində əfv, yaxud amnistiya ilə bağlı çağırışınız olmuşdu. Amma gözləntilər nəticəsiz qaldı. Səbəbini bilirsinizmi?***

- Mən 100 illiklə bağlı çağırış etmişdim. Hələ 100 illiyə kifayət qədər vaxt var.

***- Bəs, söyüş söyənlərlə bağlı çağırışınıza reaksiyaları necə qiymətləndirirsiniz. Konkret adlar çəkmişdiniz, “mövqeyinizi bildirin” demişdiniz. Həmin şəxslər hamısı mövqe bildirdilərmi?***

- Əksəriyyəti bildirdi, düzgün olaraq ortaya mövqe qoydular, bir neçə nəfəri çıxmaq şərtilə.

***- Bəs, sizin çağırışınız söyüş söyənlərin mövqeyinə necə təsir göstərdi, monitorinq aparmaq imkanınız oldumu?***

- Ola bilsin ki, bir hissəsinə təsir göstərdi, bir hissəsi bu müraciətdən sonra daha da qızışdı. Görürsən bir hissəsi başa düşür ki, bu, yol deyil, seçim deyil. Mən də başa düşürəm ki, o insanların bir çoxunun özündən asılı deyil, onlara sifariş verən və bunun arxasında duran adamlar var. Nə deyilirsə, onlar onu həyata keçirir. Çünki bu şəxslər hər hansı siyasi partiyanın rəhbər strukturlarında təmsil olunmayıblar, siyasi fəaliyyət göstərməyiblər. Ola bilər kimsə sıravi üzv olub. Yaxud hər hansı bir qəzetdə baş redaktor, redaktor müavini, hətta aparıcı yazar statusunda olmayıblar. Bu və ya digər formada hardasa siyasi mühacir statusu alıblar və belə insanları tapıb bunlardan istifadə edirlər. Çünki bilirsiniz, orada mühacirliklə bağlı müddət var da, müəyyən müddət bitdikdən sonra bunlar hər hansı işlə məşğul olmalıdır. O halda müavinətlər dayanır. Dayandıqdan sonra da bunlara işlər təklif edirlər. Aydın məsələdir ki, onlara Elmlər Akademiyasında iş təklif etməyəcəklər. O baxımdan da bunlar indi yollar axtarır. Bu yol da yol deyil.

***- Elmlər Akademiyası demişkən, xaricdəki söyüşcül dəstəyə qarşı mübarizə apardığımız halda, AMEA-nın Coğrafiya İnstitutunun direktoru jurnalistləri təhqir etdi...***

- Kim deyib, məlumatım yoxdur.

***- Akademik Ramiz Məmmədov jurnalistlərə “küçük” deyib...***

- Yox, yox, yox, elə fikir söyləmək olmaz! Mən hesab edirəm ki, etikadankənar fikir səsləndirmək yolverilməzdir. Jurnalistlər bu gün Azərbaycan həqiqətlərini yazıb ortaya çıxaran insanlardır. İndi ola bilər kimsə qərəzli yazır, bunun həll yolu məhkəmədir.

***- Necə bilirsiniz, belə bir şəxslə bağlı tədbir görüləcəkmi?***

- Onu jurnalistlər yığışıb məhkəmə qaydasında həll edə bilər.

***- Belə yanaşma da var ki, söyüş dili ilə danışanların “tərksilah” olunması üçün hökumətin bir-iki addımı kifayət edər. Məsələn, Vidadi İsgəndərlinin atasının məzarını təhqir edənlərin cəzalandırılması, yaxud elə qarşı tərəflə təhqirlə danışanların susdurulması. Bununla bağlı hakim düşərgədə müzakirələr olurmu?***

- Hər bir məsələnin müzakirəsini biz özümüz də aparmışıq. Təbii ki, o adamların tapılıb cəzalandırılmasını ən çox biz istəyirik. Çünki burada söhbət şəxsin kimliyindən getmir, ümumən Azərbaycan mənəviyyatından, əxlaqından gedir. Amma ona qədər də youtube-ni açıb baxsaz, şahidi olarsınız ki, Vidadi İsgəndərli hansı sözləri deyib. Yəni o əsas deyil. Bəs, ona qədər?

***- Siyavuş bəy, sizinlə yanaşı, bir sıra deputatlar aktiv şəkildə bu məsələlərə münasibət bildirirlər. Yaxud dövlət rəsmiləri içərisində prezidentin köməkçisi Əli Həsənov həm sosial şəbəkələrdə, həm də keçirilən tədbirlərdə aktiv şəkildə bu kampaniyanı aparanların mövqeyinə qarşı çıxışlar edir, çağırışlar edir, onları normal polemikaya çağırır. Amma hesab olunur ki, hakimiyyətdən kifayət qədər bəhrələnən bir çoxları bu prosesi kənardan müşahidə edir, sanki ehtiyatlanırlar. Niyə?***

- Bəli, hər bu gün öz mövqeyini bildirməlidir. Biz bu ölkənin vətəndaşlarıyıq. Ölkədə gənc nəslin tərbiyə olunmasında, ailə-məişət münasibətlərində insanlar ətrafa baxır və nümunə götürür. O baxımdan bu addımların atılması, bu gün dövlətdə vəzifə tutan, yaxud siyasi fəaliyyətlə məşğul olan insanlar bu məsələyə öz münasibətini bildirməlidir. Söhbət ondan getmir ki, kimisə tənqid etsinlər, fikir bildirsinlər. Ümumilikdə bu tendensiyanın aradan qaldırılması vacib olan amillərdən biridir. Ona görə də hər kəs istənilən fikri söyləyəndə 10 il gələcəyi də düşünüb sözünü deməlidir ki, yaxşı, bu gün mən xaricdə oturub söyüş söydüm, bəs, sabah, birisi gün? O söydüyü adamlar hamısı burda yaşayır, onun qohum-əqrəbası var və s. Bunlar o insanların yadından heç vaxt çıxmaz.

***- Yeri gəlmişkən, demişdiniz seçkidən sonra o adamlarla ayrıca söhbətiniz olacaq. Seçkiyə az qalıb... Söhbət hansı məzmunda olacaq?***

- İndi o mənim fikrimdir İnşallah seçkini yola verək, sonra baxarıq.

***- Bəs, bu, sivil çözüm olacaq, yoxsa duel şəklində?***

- (Gülür) Görürsünüz, mən hər kəsi sivil mübarizəyə dəvət edirəm. Amma hansı formada istəyirlərsə, o formada söhbət etməyə hazırıq.

***- Siyavuş bəy, seçki ilə bağlı teledebatları necə, izləyirsinizmi? Kim daha güclü təsir bağışlayır?***

- İzləyirəm. Həm də özüm radiodakı debatlarda iştirak edirəm. Hər kəs öz fikrini, layihəsini, düşüncəsini ortaya qoyur. İstənilən müxalifət partiyasının funksiyası ondan ibarətdir ki, hər bir məsələ ilə bağlı alternativ layihələr versin. İqtidar öz layihəsini təqdim edirsə, müxalifət də öz layihəsini ortaya qoymalıdır. Debatlarda da baxırsan ki, hərə bir fikir söyləyir, bəzən fərdlərə qarşı diqqəti yönəldir. Amma prezident seçkilərinin əsas funksiyası ondan ibarətdir ki, burada qlobal layihələr ortaya qoyulsun. Məsələn, sosial sahədə, kənd təsərrüfatı sahəsində, xarici, daxili siyasətdə, Qarabağ münaqişəsi ilə bağlı mən nə edə bilərəm? Lakin bizdə çıxışlar bundan daha çox fərdiliyə yönəlir.

***- Bəzi müşahidəçilər hesab edir ki, prezidentliyə namizəd Hafiz Hacıyev əbəs yerə bəzi şəxslərin adlarını çəkmir, bu həm də seçkidən sonra yeni komandada yer almayacaq şəxslərlə bağlı anonsdur. Razılaşırsınızmı?***

- Hər bir şəxsin orada azad fikir söyləməyə ixtiyarı var. Etnik, dini münaqişəyə çağırışdan və təhqirdən başqa. Qalan hallarda bütün çıxışları etməkdə azaddırlar. Ona görə kim nə deyirsə, şəxsi fikridir.

***- Bəs, deputat həmkarınız Fəzail Ağamalının parlament iclasında nazir Elmar Məmmədyarovu istefaya çağırması, səslənən arqumentlər barədə nə deyə bilərsiniz?***

- O da azad insandır, deputatdır. Hər bir deputat öz fikrini sərbəst şəkildə ifadə edə bilər. Bu da belə düşünür. Hesab edir ki, xarici siyasətdə belə olsa, daha yaxşı olar. Bu, onun şəxsi fikridir, parlamentin mövqeyi deyil. Bunlar hamısı cənab prezidentin səlahiyyətinə daxil olan məsələlərdir. Seçkidən sonra cənab prezident hökuməti yenidən formalaşdıracaq. Bilirsiniz ki, bütövlükdə hökumət istefaya gedir və yenidən formalaşır. Kim qənaətbəxş fəaliyyət göstəribsə, o, yenidən təsdiq olunacaq, kim göstərməyibsə, təsdiq olunmayacaq. Bunlar da hesabatı cənab prezidentə verir.

***- Qohumunuz, ADP sədri Sərdar Cəlaloğlunun çıxışları da kifayət qədər sərt olur. Faktiki sizin rəhbərliyinizin, YAP-ın icra katibi Əli Əhmədovun yanında oturub, hakimiyyətlə bağlı ciddi faktlar açıqlayır. Heç bu arada zəng edib fikir mübadiləsi apardığınız, irad bildirdiyiniz olubmu?***

- Yenə deyirəm, prezident seçkilərində hər kəs sərbəstdir. Hər kəs fikrini deyir, heç kəs heç kəsə görə cavabdehlik daşımır. Amma onunla hər hansı təması olmayıb.

***- Namizədlərdən bir çoxunun Əbülfəz Elçibəyin komanda üzvləri, yaxud əslən Naxçıvandan olması ilə bağlı da mətbuat yazdı. Qabaqcadan bu fakta nəzər yetirmişdinizmi?***

- (gülərək) İndi o məsələ bizdən asılı deyil ki. Hər bir insana namizədliyini irəli sürmək üçün bərabər şərait yaradılıb.15 nəfər namizədliyini irəli sürmüşdü. Həmin 15 nəfərdən 5-i sənədlərini ümumiyyətlə, MSK-ya qaytarmadı, 10 nəfər isə sənədlərini təqdim etdi. Onların da ikisinin müvafiq sənədləri düzgün olmadığı üçün təsdiq olunmadı. Qalan namizəd təsdiqləndi. İndi bunlar hardandır, kimdir, nəçidir, önəmli deyil. Qanunda yazılmayıb ki, bir nəfər o rayondan olmalıdır, digəri bu rayondan. Yaxud əvvəli nə olub, sonrası, ya indiki nə...

***- Bəziləri hesab edir ki, İTV-dəki debatlarda Siyavuş Novruzovun yeri görünür. Siz niyə teledebatlara qatılmırsınız?***

- Biz belə qərar qəbul etdik ki, hərəmiz bir yerdə iştirak edək. Əli müəllim televiziyada, mən radioda. Radi debatlarına da kifayət qədər insanlar qulaq asır, orada da eynilə dəyirmi masadır, müzakirəyə çıxarılan eyni məsələlərdir.

***- Və sonda, 11 apreldən sonrakı Azərbaycanla bağlı nə deyə bilərsiniz?***

- İnşallah, hər şey yaxşı olacaq, qaydasında olacaq. İctimai-siyasi sabitlik, iqtisadi inkişaf davam etdiriləcək. Təbii ki, bunlar hamısı Azərbaycan xalqından, Azərbaycan seçicisindən asılıdır. 11 apreldə məntəqələrə gələnlər və səs versinlər!

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**



# Əlaqəsiz adamlar

Zamin HACI
zaminhaci@gmail.com

**Maşın ustası və manıslara jurnalist vəsiqəsi satan baş redaktor haqda bu yaxında yazmışdım. Elə həmin günlərdə xəbər lentində Vəkillər Kollegiyasının təzə sədri qoyulmuş cavan oğlanın açıqlaması çıxmışdı. Deyirdi ki, özünü vəkil kimi aparan adamlar vardır, onlara cinayət işi açılmasına çalışacağıq.**

Əla açıqlama idi. Hərçənd, biz bu cavan oğlanın vəkillik institutuna, nəhayət, hörmət gətirəcəyini gözləyirdik. Çünki qabaqkı sədr Azər müəllim oranı elə kökə salmışdı, bəlkə camaat prokurorluqdan daha çox imdad duyurdu. Hətta adam Vəkillər Kollegiyasının qapısı üstündən asılan "Bar association" lövhəsini ikibaşlı oxuyurdu, fikirləşirdin, neyləmək olar, bardırsa, bar olsun. "Barmen, ordan mənə ikiqat viski" - necə deyərlər...

Söhbət budur ki, vəkillik bütün dünyada müdafiə vasitəsi, cəmiyyətin özünüqoruma mexanizmlərindən biri sayılır, bizdə isə vəkil deyir: "Cinayət işi açılmalıdır". Ta nə oldu? İlk açıqlama bu temada gəlməliydimi? Lap hesab edək, qanunsuz vəkillər var. Bunlar qanunsuz ittihamlardan və ittihamçılardan ki, daha çox zərər vurmur! Sözgəlişi, vəkilliyi qanunsuz ləğv olunan hörmətli və istedadlı vəkillərimizdən biri Yalçın İmanovun hardasa 2 il qabaq elədiyi söhbəti xatırladım: "Bakı Ağır Cinayətlər Məhkəməsinin 27 hakimindən 6-sı keçmiş prokuror, 6-sı keçmiş müstəntiqdir. Bu müstəntiqlərin 4-ü MTN-in sabiq müstəntiqi olub. 3 nəfər keçmiş vəkildir, 1 nəfər ballistika və trasologiya ekspertidir (kriminalistikada odlu silah atəşlərini öyrənən sahə - Z.H.), qalanları da guya hardasa hüquqşünas işləyiblər. Birinin işlədiyi hüquq firmasının adı isə "Qeys"dir".

Hazırda AzTV sədrini öldürmək cəhdində suçlanan adamların məhkəməsi gedir. Onlar Arif Alışanovun televerilişlərindən, apardığı araşdırmalardan narazı imişlər. Korrupsioner məmurlar neçə dəfə Arif müəllimə xəbərdarlıq ediblər, ancaq cəsur jurnalist qələmi, kameranı yerə qoymayıb, deyib, öncə vətəndir, xalqın mənafeyidir, millət həqiqəti bilməlidir, oğrulara ar olsun! Bundan sonra quldurlar killer tutublar, lakin cinayətin üstü açılıb...

Əşşi, zarafat edirəm, axı dünən 1 aprel gülüş günü idi. Alışanova sui-qəsd etmək istəyənlər onun var-dövlətini, əmlaklarını, yüzlərlə hektar torpaq sahələrini ələ keçirmək cəhdində suçlanır. Buyurun. Bütün dünyada jurnalisti həqiqət üstündə öldürürlər, bizdə isə var-dövlətini soymaq üçün. O məhkəmədə "killer"in ifadəsi də maraqlı idi, deyir, öldürmək istəsəm, indi sədr sağ olmazdı. Yəni, bunun killerliyi də elə sədrin jurnalistikası kimi zad imiş. Heç biri düzgün iş bacarmır. Allah bilir bu da hardasa nəğmə müəllimi işləyirmiş, çağırıblar, gəl killer işlə...

Allah demişkən, Allahşükür müəllimin də əhvalatı, savadlı uşaqların sözü olmasın, bu kateqoriyadandır. Normalda din xadimi, şeyx hansı temalarda gündəmə gəlməlidir? Ay sağ olasan, bu temalarda: dini kitabda yazılan hansı ayə nə cür təfsir olunsun, uşağı 9 yaşında ərə vermək caizdirmi, adamın başını qibləyə kəssən halal sayılırmı və sairə. Bəs bizim şeyxdən nə danışırlar və yaxud onun özü nə danışır? Heç zad. Tam anekdotdur: Şeyxiyada, üzr istəyirəm, Çexiyada mineralnı vanna zavodu varmış, Vatikanda pivə sexi açıb, nə bilim, filan torpaq sahəsini ələ keçirtdi, beşməkan nəzir qutusunu cibinə qoydu və sairə. Şeyxin cavabları da adətən dini məzmundan uzaq olub sırf siyasətə söykənir: "Prezidentlə oturmuşduq, dedim...", "Mən seçkilərdə YAP-ın namizədinə səs verməyə çağırıram" və ilaxır. Nə olar, bu qırx ildə bir dəfə də dini kitabı aç, ordan hədisdən-zaddan qırıldat, qulaq asaq da bə! (Hərçənd, dəli şeytan deyir ki, elə bu cür danışması yaxşıdır, kitab açsa, axırınız yaxşı olmaz).

İndi söz əlaqədar təşkilatlarındır - yüz ildə siz barı bir dəfə əlaqədar iş görün.




# Putindən Ankara və Bakıya mühüm jest

## Rusiya lideri seçkidən sonra ilk xarici səfərini Türkiyəyə - işğalçı Ermənistanın "qapı qonşusu"na edir; qardaş ölkə nüvə dövlətinə çevrilmə yolunda...

**Martın 18-də növbəti 6 illiyə Rusiya prezidenti seçilən Vladimir Putin sabah - aprelin 3-də Türkiyəyə gedəcək. Məlumatlara görə, böyük nümayəndə heyəti ilə gələcək Kreml başçısı prezident Rəcəb Tayyib Ərdoğanla ikitərəfli əlaqələri, o sırada hərbi əməkdaşlıqla bağlı məsələləri (S-400 komplekslərinin alınması və s.), habelə regional və qlobal əhəmiyyətli mövzuları müzakirə edəcək.**

Elə həmin gün Ankarada Türkiyə-Rusiya Strateji Əməkdaşlıq Şurasının 7-ci iclası keçiriləcək. Türkiyə prezidentinin mətbuat xidmətinin yaydığı məlumata görə, Ərdoğan və Putinin iştirak edəcəyi toplantıya iki ölkənin nazirləri qatılacaq. Strateji Əməkdaşlıq Şurasının iclasında iki ölkə arasında əlaqələrin inkişafı diqqət mərkəzində olacaq, regional və qlobal məsələlərlə bağlı fikir mübadiləsi aparılacaq. Aprelin 4-də isə Ankarada Türkiyə, Rusiya və İran dövlət başçıları arasında Suriyadakı böhranla bağlı zirvə görüşü planlaşdırılır.

*****

Putinin prezident seçkisindən sonra ilk xarici səfərini Avrasiya İqtisadi Birliyinin və ya KTMT-nin hansısa üzv ölkəsinə, məsələn, Belarusa və ya forpost Ermənistana yox, məhz işğalçı ölkənin "qapı qonşusu" Türkiyəyə etməsi diqqət çəkməyə bilməz və yalnızca simvolik əhəmiyyət daşımır. Bu, hər şeydən öncə xarici siyasətdə Moskvanın qardaş ölkənin bölgədəki roluna və yerinə, Türkiyənin şimal qonşumuzdan ötrü daşıdığı əhəmiyyətə verdiyi qiyməti göstərir. Türkiyəyə verilən önəm isə həm də Azərbaycana verilən önəm, Azərbaycana verilən mesajdır. Faktiki surətdə Moskva Ankaranı, Ankara timsalında isə Bakını seçmiş olur.

Bu xüsusda səfər ən çox işğalçı Ermənistanda narahatlıq yaradacaq, düşməni məmnun etməyəcək. Onsuz da erməni siyasi və ekspert çevrələri, Rusiyadakı və dünyadakı erməni lobbisi xüsusən də son illər Ankara ilə Moskva arasında dərinləşən əlaqələrdən təlaş keçirir, bu əlaqələrin korlanması üçün əllərindən gələni edir. Təlaşın əsas motivi isə sıxlaşan Türkiyə-Rusiya əməkdaşlığının Qarabağ məsələsinə Azərbaycanın xeyrinə mümkün təsiri ilə bağlıdır. Yəni Dağlıq Qarabağ mövzusu günün birində Moskva-Ankara münasibətlərinin predmetinə çevrilə bilər.

Ankara-Moskva münasibətləri isə son illər artan xətlə inkişafdadır və getdikcə əməkdaşlığın bütün mümkün sferalarını əhatə etməkdədir. İki ölkənin ortaq təmas nöqtələri də çoxalmaqdadır və tərəflər bir-birini getdikcə daha yaxşı anlamaqdadır. Təsadüfi deyil ki, Türkiyə Qərbin Rusiyaya qarşı açdığı diplomat savaşına qatılmayıb və heç bir rus diplomatını ərazisindən çıxarmayıb.

Rəsmi Ankara beləcə, bir daha Rusiyaya jest, Qərbə incə mesaj verib. Bununla bağlı prezident Ərdoğan Ankaranın "Sergey Skripal işi" ilə əlaqədar Moskvaya qarşı addım atmaq niyyətində olmadığını "net" şəkildə söyləyib. Ərdoğan deyib ki, Türkiyənin bu addımı atmasında heç bir zərurət yoxdur: "Bu cür məsələlərdə "biz də belə edək" anlayışını qəbul etmirik".

*****

NATO üzvü Türkiyə 4 ildir Rusiyaya qarşı Qərbin tətbiq elədiyi sanksiyalara da qoşulmayıb və bir daha özünün müstəqil xarici siyasət kursuna sadiqliyini nümayiş etdirib - hərçənd, Ankara Krımın Rusiyaya ilhaqını tanımır. Bu yerdə bir zəruri xatırlatmağa ehtiyac var: "Su 24" insidenti ilə bağlı Rusiya ilə yaşanan böhran zamanı qardaş ölkəyə nə ABŞ, nə də bütövlükdə NATO yetərli dəstək vermədi. Türkiyə bunu yaddan çıxarmayacaq - halbuki, qardaş ölkə Alyans üçün regionda çox önəmli üzv-dövlətdir.

Ümumiyyətlə, istənilən dövlət ona dar gündə dəstəkçi olmuş dövləti və ya şəxsi unutmur. Bu mənada Türkiyə kimi qüdrətli bir dövlətin, onun liderinin heç nəyə baxmadan Rusiya əleyhinə sanksiyalara və diplomatik savaşa qoşulmaması, əksinə, Moskva ilə bütün sahələr üzrə əlaqələri inkişaf etdirməsi Kremlə soyuq savaş dövründən bu yana bənzərsiz, hətta tarixi bir yaxşılıqdır. Siyasi dividentlərlə yanaşı, şimal qonşumuza maddi dividendlər gətirəcək bir jestdir.

Rusiyanın buna verəcəyi cavabı, yəqin ki, çox gözləmək lazım gəlməyəcək. Putinin Türkiyə səfəri çərçivəsində Kremlin bununla bağlı Ankaraya yeni reveransının şahidi də ola bilərik. Mümkündür ki, bu cavab münaqişəli bölgələrdə, o cümlədən Yaxın Şərq və Güney Qafqazda bir sıra məsələlərdə müştərək hərəkət etmək niyyətində özünü büruzə versin.

Hər necə olmasa, Rusiya və Türkiyənin bundan sonra bir-birinin maraqlarını daha həssaslıqla gözləmək və ciddiyə almasını təxmin etmək olar. Bütövlükdə Türkiyə Rusiya üçün artıq vazkeçilməz bir dövlətə çevrilir - həm də kifayət qədər uzun müddətə. Bu, Qarabağ kimi problemi olan Azərbaycan üçün də az önəm kəsb eləmir.

*****

Erməni tərəfini, antitürk çevrələrini Putinin səfəri ilə bağlı təlaşlandıran daha bir detal var: aprelin 3-də Mersində Akkuyu Atom Elektrik Stansiyasının (AES) təməlqoyma mərasimi olacaq və mərasimə Putin də qatılacaq. Akkuyu AES-lə bağlı Türkiyə-Rusiya anlaşması 2010-cu ildə imzalanıb. Stansiyanın ilk reaktorunun ən gec 2023-cü ildə istifadəyə verilməsi gözlənilir. Yəni uzağı, 5 ilə qardaş ölkə artıq nüvə enerjisinə, bəzi nüvə komponentlərinə malik olacaq ki, bu da atom silahına sahib olmaq yolunda mühüm amillərdən biri sayılır. Türkiyə kimi imkanlı və güclü dövlət üçün buna nail olmaq çətinlik törətməz.

Qeyd edək ki, müsəlman ölkələrindən yalnız Pakistan nüvə silahına malikdir. Türkiyənin nüvə dövləti statusu qazanması isə onun gücünə bənzərsiz bir güc qata və qeyd-şərtsiz regional supergücdən qlobal gücə və söz sahibinə çevirərdi. Bu isə Ankaranın bütün xarici siyasət məsələlərində, o cümlədən Qarabağ məsələsində artan söz sahibliyi deməkdir...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Ötən həftə İranın prezidenti Həsən Ruhani Azərbaycana rəsmi səfər etdi. İkigünlük səfər çərçivəsində geniş tərkibdə görüşlər, biznes-forum keçirildi, müzakirələr aparıldı, mühüm sənədlər imzalandı.**



# Azərbaycan İranla viza rejimini ləğv edə bilər

## Elman Nəsirov: “İranla münasibətlərimizdə, demək olar, həlli tapılmayan məsələ qalmayıb”



Son zamanlar İrandan xeyli sayda soydaşlarımız da Bakıya turist kimi səfərlər edirlər. Bəs iki ölkə arasında insani əlaqələri, sırada turizm münasibətlərini daha da yaxşılaşdırmaq üçün İrana qarşı viza rejimi ləğv edilə bilərmi? Xatırladaq ki, artıq işğalçı Ermənistan da cənub qonşumuzla vizasız rejimə keçib.

“Yeni Müsavat”a danışan deputat, politoloq Elman Nəsirov öncə İranla Azərbaycan arasındakı münasibətdən danışdı. Deputat bildirdi ki, iki ölkə arasındakı münasibətlərdə inkişaf göz qabağındadır: “Cənab İlham Əliyevin xarici siyasətinin prioritet istiqaməti ikitərəfli münasibətlər formatıdır. Bu, çox uğurlu bir siyasətdir. Çünki bizim ikitərəfli münasibətlərimiz inkişaf etdikcə bu, nəticə etibarı ilə dördtərəfli formatın formalaşmasını da təmin edib. Xüsusilə də qonşu ölkələrlə münasibətlər əhəmiyyətlidir. Bu baxımdan İran İslam Respublikası ilə Azərbaycanın münasibətləri dinamik inkişafdadır. Təsadüfü deyil ki, son 4 il ərzində iki ölkə prezidentləri arasında 11 dəfə görüş olub. Azərbaycan prezidentinin son 4 il ərzində 4 dəfə İrana səfəri olub. İran prezidentinin isə 3 dəfə ölkəmizə səfəri baş tutub. İran prezidentinin son səfəri də göstərdi ki, həm siyasi dialoqun, həm də iqtisadi, mədəni, humanitar əlaqələrimizin çox geniş potensialı var. Bundan da istifadə edilməkdədir. Xüsusilə də ”Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşması istiqamətində atılan addımlar, münasibətlərimizin yeni bir inkişaf mərhələsinə daxil olmasını şərtləndirir. Bunu cənab prezident İlham Əliyev də qeyd etdi ki, bu layihənin Azərbaycanla bağlı hissəsi artıq tam başa çatıb. Bu layihənin yeganə çatmayan hissəsi Rəşd-Astara xətti idi ki, artıq onun da maliyyələşməsi ilə bağlı müvafiq sənəd imzalanıb. Yəni bu baxımdan deyə bilərik ki, iki ölkə arasında münasibətlər həqiqətən də sıx, mehriban qonşuluq münasibətlərinə əsaslanır və strateji xarakter kəsb edir. Bunun da strateji xarakter kəsb etməsini şərtləndirən ən mühüm amil onun bağlıdır ki, fundamental məsələlərdə tərəflər ortaq mövqedən çıxış edirlər. Xüsusilə də bizim üçün ən böyük problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində İran, beynəlxalq hüququn ərazi bütövlüyü, suverenlik prinsiplərinə istinad edir. Bu da Azərbaycanın mövqeyi ilə üst-üstə düşmək deməkdir. Eyni zamanda Azərbaycan da İranla bağlı olan məsələlərdə birmənalı şəkildə suverenliyini dəstəkləyir və bu ölkəyə qarşı heç bir prosesə qoşulmayıb. Bu mövqeyini də hər zaman münadafiə edib".

Deputat bildirib ki, bu səfər növbəti münasibətlərimizin inkişafı üçün yeni imkanlar açıb: “Hüquqi normativ bazanı daha da genişləndirdi. Təsadüfü deyil ki, bu gün Ermənistanda İran İslam Respublikasının prezidentinin Azərbaycana səfəri böyük narahatlığa səbəb olub. Onlar özləri qeyd edirlər ki, İran Ermənistanın işğalçılıq siyasətinin nəticəsində üzləşdiyi blokadada nəfəslik rolunu oynayırdı. İndi artıq Azərbaycanla İranın münasibətləri yeni bir inkişaf mərhələsindədir. Bu, həm də Ermənistanın blokadasının dərinləşməsi və iqtisadi vəziyyətinin daha da gərginləşməsi anlamında qəbul oluna bilər. İranla münasibətlərimizdə demək olar ki, həllini tapa bilmədiyimiz məsələ qalmayıb. Siyasi dialoq vasitəsilə bu münasibətlər tənzimlənir. Uğurlu gedişlərimizdən biri də odur ki, Azərbaycan-Türkiyə-Gürcüstan-İran dördtərəfli formatı formalaşıb. Bütün bunlar Azərbaycanın regiona mövqelərini gücləndirən amil kimi dəyərləndirilə bilər”.

Viza məsələsinə gəlincə isə E. Nəsirov aşağıdakıları söylədi: “Bizim əlaqələrimiz turizm sahəsində də inkişaf etməkdədir. Nəzərə alaq ki, ötən il Azərbaycana xeyli sayda İran vətəndaşı turist kimi səfər edib. Cənab prezidentin bu sferada apardığı siyasətin nəticəsində artıq İran vətəndaşlarına hava limanlarında vizanın verilməsi təmin edilir. Bu isə viza sisteminin kifayət qədər sadələşdirilməsinin göstəricisidir. Nəticədə iki qonşu dövlət arasında mədəni əlaqələrin, turizm sahəsinin inkişafı üçün yeni imkanlar yaranıb. Bütün bunlar nəticə etibarilə iki ölkə üçün mühümdür. Nəzərə alaq ki, İranda 35 milyon soydaşımız yaşayır. Turizmlə bağlı münasibətlərdə yeni imkanların yaradılması dövlətlər arasında münasibətləri daha da sağlamlaşdırır”.

❑ **Əli RƏİS,**
**“Yeni Müsavat”**

# Rusiyanın təcridi Azərbaycanın xeyrinə, yoxsa ziyanınadır?

**Qərb ölkələri tərəfindən Rusiyanın dünyadan təcridolunma siyasəti daha sərt xarakter alıb. Skripal olayından sonra bir sıra ölkələrin rus diplomatlarını ölkədən çıxarması və ya buna yönəlik mesajlar verməsi, eyni zamanda, Kremlin bumeranq rolu oynayan reaksiya sərgiləməsi vəziyyətin nə qədər ciddi olduğuna işarədir.**



**Tofiq Abbasov:** “Azərbaycan özü özünü düşünməlidir”



**Əhəd Məmmədli:** “Güclü Rusiya həmişə Azərbaycanın ziyanınadır”

Mövcud durumun Azərbaycanın xeyrinə və ya ziyanına ola biləcəyi barədə mövqelər birmənalı deyil. Məsələn, politoloq Tofiq Abbasov hesab edir ki, Rusiyanı qlobal proseslərdən təcrid etmək mümkünsüz bir məsələdir: “Qərb əgər bunu öz qarşısına məqsəd kimi qoyursa, deməli, onlar tarixin dərslərini yaxşı öyrənməyiblər. Çünki belə hallar indiyədək baş verib. Rusiya inqilabından sonra, eləcə də sovetlərin dönəmində Qərb dünyası Rusiyanı təcrid, tənbeh etmək istəyir, ərazilərinin bir hissəsini mənimsəməyə çalışırdı. Amma bunun nə ilə nəticələndiyini hamımız yaxşı bilirik. Rusiyanı dünyadan təcrid edə bilmədilər. Bu ölkənin müxtəlif proseslərdə oynadığı rol bunu mümkünsüz edir. Cəhdlər edilir ki, Kremllə əlaqələri olan ölkələrə də təsirlər edilsin, onları Rusiyadan qoparsınlar, bu ölkənin bazarını sındırsınlar. Kubanı uzun illər Amerika təcrid etmək istədi. Hətta bu ölkəni belə təcrid edə bilmədilər. Bütün çətinliklərə baxmayaraq, blokada şəraitindəki Kuba bu günə qədər mövcuddur. Qərbin özünü əzmə siyasəti özü-özlüyündə mənfurdur. Məsələn, on illərdir Amerika İranı bütün proseslərdən təcrid etməyə çalışır, aclığa düçar etməyə cəhd edir. Amma bunlar alınmır. Çünki Amerikanın yaxın müttəfiqləri olan ölkələr İranla münasibətlər qurmağa çalışır. Xüsusilə, 2015-ci ilin iyulunda bağlanan nüvə sazişindən sonra onlar yaxşı anlayırlar ki, dünya iqtisadiyyatla yaşayır. İndinin özündə o dövlətlər Amerikadan uzaqlaşır ki, ABŞ Avropanın daxili işlərinə qarışmasın. Düzdür, Amerika bütün gücü ilə təsir göstərməyə çalışır. Rusiyanın çox ciddi müttəfiqləri var. Onlardan Çini, Hindistanı, Yaponiyanı, Cənubi Koreyanı misal çəkə bilərik. Böyük dünyanın olduğu və orada kifayət qədər müstəqil siyasət aparan dövlətlərin mövcudluğu göz önündədir. İngiltərənin təkidi ilə hazırda Rusiyaya qarşı başladılan kampaniyaya onlar qoşulmayacaq. Hətta Türkiyə belə bu proseslərdən kənarda qalacaq. Nəyə görə kimlərinsə təkidi ilə sübut olunmamış bir cinayətə görə kimlərsə kimlərdənsə uzaqlaşmalıdır? Dövlətlərarası münasibətlər on illər, hətta yüz illiklər ərzində qurulub. Onu bir anda qırmağın özü anormal bir haldır. Azərbaycana gəlincə, Rusiya yaxın qonşumuzdur. Müəyyən mənada müttəfiq ölkələrdir. Bizim Rusiya bazarında, onların da bizim bazarda maraqları var. Bu hər iki tərəfə xeyir gətirir. Azərbaycana qarşı təzyiqlərin olacağı istisna deyil. Fevral ayında Amerika kəşfiyyatının rəhbərinin məruzəsi dərc olunub, orada bir neçə ölkəyə, o cümlədən, Azərbaycana xəbərdarlıq olunub ki, Rusiyadan silah almasın. Niyə belə olmalıdır? Biz müharibə şəraitində yaşayan ölkəyik. Biz heç bir beynəlxalq qanunları pozmadan bunları edirik. Nəyə görə Amerika bizə təsir göstərməlidir? Sizlərin Rusiya ilə haqq-hesabı ola bilər, bunun bizə nə dəxli var? Ukrayna Qərbin ucbatından Rusiya ilə münasibətlərini birmənalı pozdu. Nə qazandı? Ukraynanın baş bilən naziri var idi, Azarov. O bildirmişdi ki, siyasətlə iqtisadiyyatı birləşdirmək olmaz. Onun dediklərinə məhəl qoyulmadı və hazırkı durum nəticədə yarandı. Hər zaman belə olub, böyük dövlətlər öz haqq-hesablarını çürüdəndə kiçik ölkələri düşünmür. Bu baxımdan Azərbaycan özü-özünü düşünməlidir. Kampaniyalara uymadan problemlərimizi həll etməyə çalışmalıyıq. Hansı ölkələr strateji maraqlarımıza təhlükə gətirirlərsə, onlardan uzaq durmalıyıq. Rusiya ilə biz düşmən mövqeyində ola bilmərik. Çünki onların bizdən, bizim də onlardan böyük asılılığımız var. Orada milyonlarla azərbaycanlı yaşayır. Azərbaycan bu sahələrdə böyük səriştə toplayıb, məharətlə də siyasətini yürüdür”.

“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli bildirdi ki, Rusiyanın dünyadan təcridolunma siyasəti uğurla başa çatarsa, bu, ölkəmizin xeyrinədir: “Rusiyanın dünyadan təcrid olunacağı iddiasını irəli sürmək hələ tezdir. Nə vaxta qədər ki, rus qazı Avropaya gedir, bu ölkənin təcrid olunmasından danışmaq tezdir. Rusiya təcrid olunmasına rəğmən bütün təzyiqlərə tab gətirə biləcəksə, bu qarşıdurmadan güclü çıxacaq. Güclü Rusiya isə Azərbaycanın həmişə ziyanınadır. Yox, əgər Rusiya təcrid olub zəifləyəcək, çökəcək, bölünəcək və dağılacaqsa, bu təbii ki, Azərbaycanın xeyrinədir. Bu halda Azərbaycan ən azı Qarabağ və Ermənistan problemini qısa zamanda öz xeyrinə həll edib, həqiqətən də Qafqazın lider dövlətinə çevrilə bilər. Rusiyanın təcridi və bundan zəifləmiş hala düşməsi Azərbaycana imkanlar yaradacaq ki, Qarabağ problemini nəhayət çözə bilsin. Bu imkanlardan Azərbaycanın necə yararlanacağı başqa bir məsələdir. Rusiyanın təcridi bu ölkənin daxilində gərginliyi pik həddə gətirib çıxara və bu da Kremlin başının ancaq özünə qarışması ilə nəticələnə bilər. Bu da Azərbaycanın və region ölkələrinin xeyrinə ola bilər ki, Rusiya təzyiqi və təhlükəsindən heç olmasa müvəqqəti qurtula bilib, öz problemlərini həll edə bilsinlər. Rusiyanın təcridi ilk öncə özünə təhlükədir. Rusiya dünyanın ən böyük ərazisidir. Bu coğrafiyada gərginlik region və dünya üçün də təhlükəli ola bilər. Amma imperialist Rusiyanın varlığından daha çox onun çöküşü dünya və region üçün daha məqbul və az təhlükə gətirən bir hadisə olar”.

❑ **Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**

Yeni Müsavat
N 69 (6958) 2 aprel 2018

**"Yeni Müsavat"ın budəfəki müsahibi tanınmış müğənni, əməkdar artist Ədalət Şükürovdur. Müğənni redaksiyamızda maraqlı və səmimi açıqlamalar verib. Müsahibəni təqdim edirik:**



# "10 ildir toy qiymətini dəyişmirəm"

## Əməkdar artist Ədalət Şükürov: "Bütün müğənniləri çağırıb dedilər ki..."

***- Ədalət bəy, öncə yaradıcılığınızdakı son yeniliklər haqqında danışardız.***

- Hər şey yaxşıdır. Ötən ay 8 mart Beynəlxalq Qadınlar Bayramı münasibəti ilə Dağıstanda, o cümlədən Mahaçkalada, Dərbənddə konsertlərdə olduq. Hazırda isə prezident seçkisi ərəfəsində keçirilən proqramlarla biz müğənnilər regionlarda səhnədə çıxış edir və hər kəsi aprelin 11-də keçiriləcək seçkilərdə iştrak etməyə səsləyirik. Seçkilərdə iştirak etmək hər kəs üçün vacibdir.

***- Bəs siz artıq öz namizədinizi müəyyənləşdirmisiz?***

- Namizədimi 15 il bundan əvvəl müəyyənləşdirmişəm və açığı, başqa namizəd də görmürəm.

Bizim ölkəmiz demokratik ölkədir. Çoxu bu demokratiyanı anarxiya ilə səhv salır. Demokratiya o demək deyil ki, sən hər nə istədiyini deyə, söyə, yaza bilərsən. Çox təəssüflə qeyd edirəm ki, hətta bəzi jurnalistlər demokratiya ilə anarxiyanı səhv salır. Məsələn, bəzən səhər saytları açanda görürük ki, bir çox əxlaqsız, şərəfsiz, mədəniyyətsiz, söyüş dolu hansısa video və ya foto qoyurlar. Buna mənim övladlarım, sizin valideynləriniz baxır. Bildiyiniz kimi artıq təkliflər var ki, bu profilləri, saytları bağlasınlar.

***- Yəqin ki, son zamanlar facebookda söyüş taktikasının artmasını nəzərdə tutursuz...***

- Onları yazan internetin o biri tərəfindədir. Və sən bilmirsən ki, o insan kimdir, tərbiyəsi nədir, valideynləri, müəllimləri kim olub, arxasında kimlər dayanır, kimlər köməklik edir və sairə. Hər halda ağıllı adam bunu etməz. Əlbəttə ki, bu yaxşı deyil. Mənim üçün təəccüblüdür, görəsən o sözləri, təqirləri yazan adamın valideyni demir ki, "ay balam, nə edirsən?"

Gəlin baxaq, bizim düşmən saytlarının heç birində nə müğənnilərə, nə dövlətə qarşı söyüşlər olmur.

Çox istərdim ki, mətbuatımızda kriminal, intihar xəbərləri də çox olmasın. Görürsən ki, kimsə özünü qatarın altına atır və yaxud körpüdən atır, səhəri gün başqaları o xəbəri izləyib bunu təkrar edir. Yəni bu xəbərlərlə insanları yuxudan oyatmaq olmaz. Məsələn, ərəb ölkələrində kriminal xəbərləri kənarda qalır.

***- Kriminal xəbərlərdən söz düşmüşkən, son zamanlarda elə sənətçilərin bu aləmə marağını, kriminal avtoritetlərlə dostluq, sevgi münasibətində olduğunu görürük.***

- Mən Sumqayıt şəhərinin 1-ci kvartalında anadan olmuşam. Sumqayıtlıların əksəriyyəti bilir ki, ora necə kriminal aləm, məkan olub. Amma buna baxmayaraq onun mənə təsiri olmayıb, həyat görən uşaq olmuşam, nəinki "mama-papa uşağı". 18 yaşımda Sankt-Peterburq şəhərinə getdim. Onda kriminal aləmin, kriminal zamanın şiddətli vaxtı idi. Yəni kriminal aləmin nə olduğunu bilirəm. Lakin indi bu haqda məlumatı olan da, olmayanda danışır, yazır. Biz sənət adamları hər kəsin qarşısında çıxış edirik. Bizim üçün fərqi yoxdur, o insanlar harda işləyir, nə işlə məşğuldur. İnsanların şad günləri, toy məclisləri olur. Bizi də dəvət edirlər ki, onları şənləndirək, vəssalam.

***- Kriminal aləmin nümayəndələri ilə dostluğunuz varmı?***

- Həmişə olub, indi də var. Amma bu o demək deyil ki, mən onların adından istifadə etməliyəm. Bu, elə-belə deyil, 20-30 ilin dostluqlarıdır. Mən onların şənliklərinə, toylarına, yaslarına da getmişəm.

***- Bir az öncə hər kəsi seçkilərdə iştirak etməyə çağırdız. Televiziya efirlərində prezidentliyə namizədlərin debatlarını izləyirsizmi? Mövqeyiniz necədir?***

- Sözün düzü, iki dəfə izlədikdən sonra, daha baxmıram. Ona görə ki, burada bir çox məqam var. Məndən hər kəs inciməsin. Ölkənin rəhbəri olmaq üçün həddindən artıq bilgili olmalısan. Mən əmin deyiləm o debatda gördüyüm bir neçə namizəd sabah hansısa ölkə pezidenti ilə görüşdə nəyisə müzakirə edə bilsin, danışsın. Məsələn, bizim düşmən ölkənin prezidenti ilə danışa bilərlər? Onlar buna hazırdırlarmı? Yaxud onların xarici görünüşü prezidentliyə hazırdır? Buna görə də mən öz seçimimi çoxdan etmişəm.

***- Qayıdaq yaradıcılığınıza. Sonuncu albomunuz neçənci ildə çıxıb?***

- Sonuncu dəfə 2008-ci ildə albomum işıq üzü görüb. Biz sənətçilər mahnılarımızı həmişə yazdırırıq. Niyə albom buraxmırıq, müğənnilərin əksəriyyəti, təxminən 90 faizi niyə buna maraq göstərmir? Çünki biz xeyir görmürük. Tutaq ki, diski mağazadan alır, gətirir onu "fləşkart"a köçürür, paylayır və yaxud istədiyi musiqini internet resuslarından dinləyir, beləliklə diskə ehtyac qalmır. Ona görə də albom çıxarılmasını dayandırmışıq. Əsasən internet resusları ilə mahnılarımızı təqdim, təbliğ edir, öz üzərimizdə işləyirik.

Bu günlərdə Rusiya parlamenti tərəfindən Azərbaycan-Rusiya arasında mədəniyyətlər arası fəaliyyətimə görə mükafata layiq görüldüm. Neçə illərdir ki, Rusiyadakı konsert və tədbirlərdə iştirak edirəm. Orda da məni çox sevirlər.

***- Yəqin ki, müşahidə etmisiz, ölkəmizdə ifaları heç də birmənalı qarşılanmayan, bayağı hesab edilən bəzi müğənnilərimiz var ki, Rusiya, Özbəkistan, Türkmənistanda xeyli populyarlıq qazana bilib, onların toy bazarına giriblər.***

- Bir dəfə bir türkiyəli müğənni ilə söhbət edəndə mənə dedi ki, "Ədalət, sizin müğənnilər çalışır ki, bizim Türkiyənin toy bazarına girsin. Biz isə çalışırıq ki, Azərbaycan toy bazarına girib, pulumuzu qazanaq". O ki qaldı bayağı mahnılara, ifalara, mən bildim söhbət kimlərdən gedir, siz sözü hara vurursuz. Ümumiyyətlə, hər bir müğənninin özünün dinləyicisi var. Əgər siz özünüz hansısa müğənniyə qulaq asmırsınızsa, bu, o demək deyil ki, o, yaxşı müğənni deyil. Pis müğənni, mahnılar yoxdur. Ola bilsin ki, hansısa mahnını müəyyən formada təqdim etmirlər, o da sizin xoşunuza gəlmir. Bəli, bir neçə müğənni var ki, onları Rusiyada çox sevirlər. Ola bilər ki, bayağı mahnı dediyinizin sözləri çox sadədir. Amma diqqət etsək görərik ki, xalq mahnılarımızın da sözləri sadədir və heç kim demir ki, onlar bayağıdır. Ümumiyyətlə hərdən "bayağı mahnı" deyəndə anlamıram ki, "bayağı" nəyə deyirlər.

***- Məsələn olur ki, mahnılarda küçə sözlərindən istifadə olunur.***

- Bu da bir folklordur.

***- Bildiyim qədər, bütün mahnılarınızın sözləri, musiqisi, aranjimanı sizə aiddir.***

- Əvvəl özüm yazırdım, amma indi bir qədər tənbəlləşmişəm (gülümsəyir).

***- Hə, bunu çox adam deyir...***

- Əvvəllər hamısını özüm yazırdım. Hər kəs məni yazdığım mahnılara görə sevib. Və hər müğənniyə də qismət olmur ki, başqa ölkədə yaşaya-yaşaya vətənində mahnıları populyar olsun. Halbuki həmin illərdə mən heç müğənni deyil, iş adamı idim. Mən şanson ifaçısıyam. Şanson da o adamdır ki, mahnısının sözlərini, musiqisini yazır və özü də ifa edir.

***- Bəs son illərdə?***



## "Çoxu demokratiyanı anarxiya ilə səhv salır"

- Son illərdə tənbəlləşmişəm.

***- Bəs hansı bəstəkara müraciət edirsiz?***

- Eldar Mansurovun mahnısını oxumuşam və ya musiqi yazıram, onun sözlərini Baba Vəziroğlu yazır. Yaxud da Vüqar Əbdülova müraciət edirəm.

***- Necə düşünürsüz, mahnılarınızın əvvəlki populyarlığı varmı?***

- Hə, bildim siz nə demək istəyirsiz (gülür). Ola bilsin ki, insanlar mənim yazdıqlarımı daha çox sevirlər. Amma son mahnılarımı da bəyənirlər.

***- Bəzən deyirlər ki, Ədalət Şükürovun mahnıları bir-birinə oxşayır.***

- Hansı, məsələn? İnsanlar bunu sadəcə düzgün ifadə etmir. Hər bir müğənninin öz ifa tərzi var. Məsələn, Eyyub Yaqubovun mahnısı uzaqdan səslənəndə hər kəs bilir ki, bu onun ifa tərzidir. Mahnılar eyni deyil, sadəcə Eyyub Yaqubov mahnıları öz tərzində ifa edir. Bu da normal haldır. Məsələn, Miri-Yusif bizim tərzdə oxuya bilməz, onun öz tərzi var. Ona görə də Ədalət Şükürov və digərləri öz tərzində ifa edir.

***- Ümumiyyətlə musiqi savadınız varmı?***

- Bəli, məktəbdə gitara üzrə təhsil almışam, daha sonra Mədəniyyət Universitetini bitirmişəm. Ümumiyyətlə 20 ilə yaxın ali savad almışam, özü də Rusiyada. Rejissorluğu oxumuşam, daha sonra İqtisad Universitetində təhsil almışam, Baltik Akademiyasını bitirmişəm, aspirant olmuşam. 2007-ci ildən isə elmlər namizədiyəm.

***- Rejissorluq peşəsinə sahibsiz. Bəs nə əcəb ölkəmizdə film çəkmirsiz və ya çəkilmirsiz?***

- Gərək film də samballı film olsun da. Mən şəkillər göstərə bilərəm ki, tələbəlik illərimdə filmlərə çəkilmişəm. Tələbə olanda bizi filmlərə göndərirdilər... Yəni, film ciddi film olsa, çəkilərəm. Amma indi çəkilən filməri də qınamaq olmaz. Bizdə hələ indi-indi başlayıblar, uşaqlar nəsə çəkməyə çalışırlar. Sizin ağlınız Türkiyədə çəkilən filmlərə getməsin.

***- 15 il əvvəl Türkiyə filmləri də indiki səviyyədə deyildi.***

- Elə 15 il əvvəl də bizdə bu cür deyildi. İndi uşaqlar çəkirlər, nəsə yaradırlar.

***- Bir az öncə qeyd etdiniz, bəlkə də boynunuza aldız ki, tənbəlləşmisiz. Bəzən şayiələr yayılır ki, Ədalət Şükürov bizneslə məşğul olduğundan sənətdən bir qədər aralı düşüb.***

- Mən sizin qəzet vasitəsilə hər kəsə bildirmək istəyirəm ki, 10 ildir ki, Ədalət Şükürovun biznesi yoxdur. Niyəsə insanların beynində bu cür qalıb. Bəli, 10 il əvvəl bizim turizm şirkətimiz var idi, lakin onu bağladıq, aptekimiz var idi, onu da bağladıq. Hərdən mənə söhbət çatır ki, haradasa mənim avtosalonum və yaxud hansısa şirkətim var. Amma yoxdur. Əgər varsa, belə bir şey təsdiqini tapsa, 50/50-yə orada işləməyə hazıram (gülümsəyir). Siz də araşdırın, əgər doğrudan da elə bir biznesim varsa, həmin biznesimi ya onu deyən adama, ya da sizin qəzetə halal edəcəm (gülümsəyir).

***- Biznesdə bəxtiniz gətirmədi, yoxsa?..***

- Yox, gərək biznesdə səhərdən-axşamadək işləyəsən. Əgər o işdə olmadın, onda çətin onu axıra qədər apara bilərsən. Hazırda başqa biznesim yoxdur, olsaydı əla olardı.

- Yəqin ki, sizi biznesmen bilib, yardım istəyənlər də çoxdur.

- Təsəvvür edin, səhər "İnstagram"ı açıb oxuyursan, hamı eyni şey yazır. Hərdən elə gülməli şeyə pul istəyirlər ki, onlara başa sala bilmirik ki, biz incəsənət adamıyıq, hansısa xeyriyyə qurumunda deyilik ki, pul paylayaq. Bəzən düşünürlər ki, əgər bu müğənnidirsə, deməli, pulu çoxdur. Yox, elə deyil. Biz müğənnilər ilin 6 ayını işləyirik, 6 ay isə işləmirik. Bilirsiz ki, bunun Məhərrəmlik, Orucluq ayı var, mayı, avqusut var və sairə. Bilmirəm insanlarda hardan belə bir fikir formalaşıb ki, biz insanlara pul paylamalıyıq? Bu bizim işimiz deyil. Ola bilsin ki, kiməsə köməklik edə bilərik, amma onlardan əvvəl bizim qohumlarımız, ailəmiz, ondan əvvəl məcburi köçkünlərimiz var. Bunu da hər kəsə başa salmaq olmur. Mən yalnız xeyriyyəçi tədbirlərdə, konsertlərdə iştirak edə bilərəm. Yoxsa ki, hamıya pul paylayım, bu mənim işim deyil və buna ixtiyarım da yoxdur. Təsəvvür edin, gündə yüz adam mənə yazır. Onların hərəsinə 100 manat versəm, belə çıxır ki, bir günə 10 000 manat yardım etməliyəm. Bəzən insanlar buna görə bizdən inciyir. Biz müğənniyik, bizdən nə asılıdırsa edirik və bizə nəsə öyrətmək lazım deyil. Sizlərdən də əvvəl bizim problemlərimiz, nəslimiz var, hansı ki, sizdən də əvvəl onların ehtiyacı var.

***- Bəzən müğənnilər toya 15-20 min manata getdiklərini açıqlayırlar. Siz bu sahədəsiz, daha yaxşı bilirsiz, həmkarlarınız bu açıqlamalarında nə qədər səmimidirlər?***

- Deyim ki, Ədalət Şükürov son 10 ildə toy qiymətini dəyişmir, necə var, eləcə də qalıb. 2005-ci ildən də vergi ödəyirəm. Bir dəfə bütün müğənniləri çağırıb dedilər ki, "kimin nə borcu var ödəsin". Sən bu dövlətdə yaşayırsansa, dövlətin rüsumunu ödəmlisən. Bu, həmişə belə olub.

Müğənnilər var ki, toya 3000-5000 manata, bəzisi 5000-10 000 manatadək gedir.

***- 10 000-dən yuxarı qiymət yoxdur yəni?***

- Var. Məsələn, Brilliant Dadaşova, Abbas Bağırov, Faiq Ağayev daha yüksək qiymətə toylara gedir. Amma bu o demək deyil ki, müğənni bütün bu pulu öz cibinə qoyur. Həmin puldan musiqiçilərə qonorar verməlisən, avadanlıqlara xərcləməlisən, sürücü və üstəlik geyim xərcləri var.

**Xalidə GƏRAY**
**Musavat.com**

# Ölkədə ağır yol qəzaları niyə artıb?

## Səbəblərdən danışan **nəqliyyat eksperti təklif verdi:** “Gizli radarlardan da istifadə olunarsa…”

**Ölkədə yol-nəqliyyat hadisələri ilə bağlı xəbərlərə, demək olar ki, hər gün rast gəlirik. Ekspertlər hesab edirlər ki, qəzaların baş verməsinə səbəb olan əsas arqumentlərdən biri yüksək sürətdir. Xüsusilə də əsas magistral yollarda baş verən avtomobil qəzaları, təəssüf ki, çox zaman ölümlə nəticələnir.**

Məsələn, geridə qoyduğumuz mart ayı ilə bağlı statistikaya nəzər salsaq görərik ki, bu ayın 20-dən 27-dək 61 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Bu hadisələrin nəticəsində isə 95 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb, 14 nəfər isə dünyasını dəyişib. Martın 27-dən 28-dək isə 6 yol qəzası qeydə alınıb, hadisələr zamanı 4 nəfər dünyasını dəyişib. Son olaraq martın 31-də Ələt-Astara magistralının Lənkəran rayonunun Gərmətük qəsəbəsi ərazisindən keçən hissəsində ağır yol qəzası baş verib. Belə ki, “Shacman” markalı yük maşını ilə “VAZ-21015" və ”Mitsubishi"" markalı minik avtomobilləri toqquşub. Hadisə nəticəsində 6 nəfər dünyasını dəyişib.

Rəsmi məlumatlara görə, 28 il ərzində (1988-2016-cı illər) 73813 yol-qəza hadisəsi qeydə alınıb. Nəticədə 26 min 183 nəfər ölüb, 81 min 873 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.



Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan nəqliyyat üzrə ekspert İlqar Hüseynov bildirdi ki, hadisələrin bu qədər çox olmasının səbəbləri müxtəlifdir: “Qəzaların baş verməsinə bəzi hallarda yol infrastrukturunun qaydasında olmaması şərait yaradır. Belə ki, bəzi magistral yollarımızın infrastrukturunda problemlər var. İkinci səbəb də odur ki, sürücülərimizin bəziləri avtomobildən əyləncə vasitəsi kimi istifadə edirlər. Eyni zamanda sürücülərin sürücülük vəsiqəsini alan zaman normal məktəblərdə təhsil almaması, müxtəlif üsullarla bu vəsiqəyə sahiblənmələri də qəzaların kökündə dayanan səbəblər sırasındadır. Sürücülər var ki, yol hərəkəti qaydalarını bilmirlər. Xüsusilə də yeniyetmə sürücülər arasında monitorinq aparsaq görərik ki, onların nişanlarla bağlı bilikləri çox aşağı səviyyədədir. Bütün bunlar isə ”qəza statistikası"na təsir göstərən amildir. Nəqliyyat vasitəsinin idarə olunmasında texniki məsələlər gözlənilmir. Əslində isə bu, çox önəmli bir problemdir. Yaxşı olar ki, dövlət orqanları buna müdaxilə etsinlər. Bundan əlavə bəzi sürücülər nəqliyyat vasitəsini içkili halda idarə edirlər ki, nəticədə qəza törədirlər".

Ekspert bildirib ki, yollarda nişanların sayının az olması da qəzaların baş verməsinə səbəb olan əhəmiyyətli məsələdir: “Magistral yollarda nişanların sayı yetərincə deyil, azlıq təşkil edir. Bu, əhəmiyyətli məsələdir. Ancaq hesab edirəm ki, bununla yanaşı, hər bir sürücü özü yolda hərəkətə uyğun formada davranmalıdır. Onun özünün yanaşması olmalıdır. Sürücü nəqliyyat vasitəsini idarə edən zaman ehtiyat imkanlarını nəzərə almalıdır. Bu faktoru da nəzərə alırıq ki, yollarda nişanların qoyulmasında problem var. Bəzi hallarda işıqforlar işləmir. Azərbaycanda xüsusilə də gənclər avtomobil nəqliyyat vasitəsindən əyləncə vasitəsi kimi istifadə edib, təhlükəli manevrlər edirlər, sürət həddini pozurlar. Bunların nəticəsində də qəzaların sayı artır”.

Ekspert hesab edir ki, magistral yollarda radarların qoyulması qəzaların sayının azalmasına təsir göstərir: “Radarların sayının artırılması da prinsipial məsələ deyil. Bəyəm hər kilometrdə bir radar qoymalıyıq? Əslində bu cür radarların qoyulması sürücülərin yalnız o məsuliyyətini artırır ki, radara düşməsinlər və artıq vəsait ödəməsinlər. Sürücülər cərimələnməmək üçün radarın qaydalarına əməl edirlər. Əgər cərimələrin məbləği son dərəcə aşağı olsaydı, müşahidə edərdik ki, sürücülərin bir çoxu radarlara da əhəmiyyət vermirlər. Bu da faktdır ki, radarların da standartlara uyğun qoyulması məsələsi var. Sözsüz ki, ölkənin bütün magistral yollarının radarlaşdırılması məqsədəuyğun hal deyil. Bu, sürücülərin mənzil başına çatmaları üçün çox ciddi zaman problemi yarada bilər. Hazırda magistral yollarda maksimal sürət həddi saatda 120 kilometrdir. 120-nin üzərinə də 10 sürət əlavə edib, 130-a qaldırmaq mümkündür. Biz hər yolda 60-70 sürət həddini də qoya bilmərik. Bir məsələ də var ki, sürücülər radarları ötən kimi yenidən sürət həddini qaldırırlar. Bunu əksər hallarda o sürücülər edirlər ki, onlar həmin yoldan tez-tez istifadə edirlər və radarların da yerini bilirlər. Gizli radarların tətbiqi ilə bağlı da məsələ gündəmə gəlmişdi. Ancaq təəssüf ki, bu, baş vermədi. Hesab edirəm ki, gizli radarlardan da istifadə olunarsa, sürücülərdə məsuliyyət yükü daha da artar”.

❑ **Əli Rəis,
“Yeni Müsavat”**

# Avropada mersiz qalan tək paytaxt - Bakı...

## **Ekspert:** “Prezident seçkisindən sonra ən vacib məsələlərdən biri də bu olmalıdır…”

**Ölkədə prezident seçkisinin keçirilməsinə 10 gündən də az vaxt qalıb. Ötən il bir sıra dövlət qurumlarında struktur dəyişikliyi edildi, bəzi şöbələr ləğv olundu, ixtisarlar aparıldı. Bəs illərdir müzakirə olunan Bakıda mer seçkisinin keçirilməsi bu il mümkündürmü?**

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan Avropa Şurasında yeganə ölkədir ki, burada paytaxt meri sakinlərin səs verməsi yolu ilə seçilmir, ölkə prezidentinin fərmanı ilə təyin edilir. Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqressi bir neçə dəfə Azərbaycan hakimiyyətindən qanunvericiliyi Avropa normalarına uyğunlaşdırmağı tələb edib. Lakin hələ ki, bu məsələ il bağlı addımlar atılmır.

Avropa ilə yanaşı sərhəd qonşumuz Rusiyada, İranda, hətta işğalçı Ermənistanda belə mer seçki yolu ilə müəyyən edilir. Azərbaycanda isə illərdir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovdur. Onunla bağlı isə ölkədə şikayətlər günbəgün artır. Bütün bunlara baxmayaraq ölkədə mer seçkisi keçirilmir.

Bakıda mer seçkilərinin keçiriləcəyi ilə bağlı hələ 2009-cu ildə mətbuata açıqlamasında Milli Məclisin regional siyasət daimi komitəsinin sədri Arif Rəhimzadə aşağıdakılar bildirmişdi: “Bakı şəhərində mer seçkiləri keçiriləcək, amma bunun nə vaxt keçiriləcəyini deyə bilmərəm”.

Eyni zamanda həmin il Böyük Bakı Bələdiyyəsi layihəsinin həyata keçiriləcəyi barədə məlumatlar yayıldı. Layihəyə əsasən sözügedən qurum şəhər təsərrüfatının vahidliyini təmin edəcək, yerli özünüidarəetməni həyata keçirəcəkdi. Yerli vergiləri və ödənişləri müəyyənləşdirəcək, şəhərin sosial müdafiə və sosial inkişaf, iqtisadi inkişaf, ekoloji proqramlarının qəbulu, icrası, təhsil, səhiyyə, sanitariya müəssisələrinin təsis edilməsi, şəhər əhəmiyyətli su mənbələrinin idarə olunması, yolların tikilməsi və sairə bu kimi məsələlərdə iştirak edəcəkdi. Beləliklə də Bakı Şəhər İcra Hakimiyyətinin səlahiyyətlərinin böyük qismi Bakı Bələdiyyəsinə aid olacaq. Lakin bütün bunların şahidi olmadıq.



“Yeni Müsavat”a danışan ekspert Natiq Cəfərli bildirdi ki, Azərbaycanın bu öhdəliyi yerinə yetirməməsi Avropa Şurası ilə gərginliyə səbəb olur: “Bu, eyni zamanda Azərbaycanda yerli idarəetmənin təsis olunması nəticəsində insanlara daha yaxşı xidmətin aparılması üçün çox vacibdir. Mer seçkiləri və Böyük Şəhər Bələdiyyələrinin yaradılması bir çox hallarda vətəndaşla seçilmiş yerli özünü idarəetmə orqanları arasında təmasları da yaxşılaşdıra bilər. Bu, eyni zamanda dövlətin də yükünün azaldılması deməkdir. Böyük Şəhər Bələdiyyələrinin yaradılması həm nəqliyyat infrastrukturunun daha yaxşı idarəedilməsi, həm təmir-tikinti işlərinin daha səmərəli və keyfiyyətli aparılması, həm də büdcədən ayrılan vəsaitlərə qənaət etmək üçün lazımdır. Ona görə də dövlət bu barədə düşünməlidir. Yerli özünü idarəetmənin güclənməsi, həm də dövlətin özünün güclənməsi deməkdir. İnsanların idarəetmədə iştirakının təmin olunması, məsuliyyət məsələsidir. Seçilmiş bələdiyyələr yaradılsa onların məsuliyyəti də vətəndaş qarşısında artacaq. İndi isə icra başçıları təyin olunurlar. Böyük şəhərlərin təyin olunan icra başçıları vətəndaş qarşısında məsuliyyətdən daha çox başqa şeylər barəsində düşünürlər. Ona görə də burada zərbə vətəndaşa dəyir. Düşünürəm ki, prezident seçkisindən sonra ən vacib məsələlərdən biri də bu olmalıdır. Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliyə əməl edib həm Böyük Şəhər Bələdiyyəsinin yaradılmasına, həm də mer seçkisinin keçirilməsinə başlamalıdır. Gələn il bələdiyyə seçkiləridir. Ona qədər qanunvericilikdə nəzərdə tutulan bütün dəyişiklikləri həyata keçirib Böyük Şəhər Bələdiyyəsinin yaradılması, mer institutunun formalaşmasına start verilməlidir. Bunun faydası yuxarıda da qeyd etdiyimiz kimi böyükdür. Ümid edək ki, seçkidən sonra əsas müzakirə mövzusu bu olacaq”.

❑ **Əli Rəis,
“Yeni Müsavat”**



# Bakıdan rayona getdi, meyiti meşədə tapıldı

**Lerikdə meşə ərazisində asılmış halda tapılan şəxsin kimliyi məlum olub. APA-nın cənub bürosunun məlumatına görə, həmin şəxs rayonun Veri inzibati ərazi vahidinə daxil olan Küsəkəran kənd sakini, 1966-cı il təvəllüdlü Tofiq Hüseyn oğlu İsayevdir.**

Məlumata görə, T. İsayev Bakı şəhərində yaşayıb, bir neçə gün əvvəl kəndə qardaşıgilə gəlib. Mərhum ailəli olub, 2 oğlu və 1 qızı var. Hadisənin hansı şəraitdə baş verməsi isə hələ ki, məlum deyil.

Qeyd edək ki, T. İsayevin ağacdan asılmış meyiti ötən gün kənd sakinləri tərəfindən meşə ərazisində aşkar olunub. Onlar aidiyyəti üzrə məlumat verdikdən sonra meyit müayinə olunmaq üçün Məhkəmə Tibbi-ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran Rayon Şöbəsinə təhvil verilib.

YENİ MÜSAVAT
N 69 (6958) 2 aprel 2018

**Xüsusən yaz fəsli öncəsi insanların sağlam həyat tərzi ilə bağlı arzuları güclənir. Hər kəs gündə nə qədər addım atmanın, nə qədər gəzmənin, nə qədər su içmənin vacibliyi barədə araşdırmalar aparır. Yazqabağı idman zallarına gedənlərin sayı artdığı kimi əlində su şüşələri ilə gəzənlərin, axşamlar bulvara gəzintiyə çıxanların da sayı artır.**



# Sağlam olmaq üçün suya və addımlara möhtacıq

## Gündə 1 litr su və 10 min addım - sağlam həyat tərzinin formulu

"Yeni Müsavat" yazqabağı sağlam həyat tərzinə keçmək istəyənlər üçün bu məsələdə bir gəzişmə edib. Ortaya ilginc faktlar çıxıb.

**Çəkiniz nə qədərdirsə, o qədər də su içməlisiniz**

Öncə su məsələsindən başlayaq. Maraqlıdır ki, müxtəlif mənbələrdə gündəlik su norması barədə fərqli məlumatlar yer alır. Ən geniş yayılmış məlumat isə ondan ibarətdir ki, gündəlik içəcəyiniz suyun miqdarı çəkinizə mütənasib olmalıdır. Bir çox hallarda insanlar su içməklə digər mayeləri içməyi səhv salırlar. Yəni, meyvə suyu içmək su içməyə bərabər deyil. Sağlam metabolizm üçün hər gün müəyyən miqdarda su içmək lazımdır. İçəcəyiniz suyun miqdarı isə çəkinizə görə dəyişir.

Günlük içəcəyiniz suyun miqdarını bilmirsinizsə aşağıdakı cədvəl sizə kömək edə bilər:

*Çəkiyə görə günlük su ehtiyacı*

| *Çəki* | *Gündəlik su ehtiyacı (ml)* |
|---|---|
| *36 -* | *1,182* |
| *45 -* | *1,478* |
| *54 -* | *1,774* |
| *63 -* | *2,070* |
| *72 -* | *2,365* |
| *81 -* | *2,661* |
| *90 -* | *2,957* |
| *99 -* | *3,253* |
| *108 -* | *3,548* |
| *117 -* | *3,844* |
| *127 -* | *4,140* |
| *136 -* | *4,436* |
| *145 -* | *4,731* |

Əgər gündəlik içəcəyiniz suyun miqdarı qədər su və ya sadə su içmək istəmirsinizsə, o zaman içdiyiniz suyun içərisinə bir limon dilimi və ya istənilən meyvəni atıb içə bilərsiniz. Bu həm görünüşü gözəlləşdirəcək, həm də suyu canlandıracaq. Mütəxəssislərin rəyincə, adicə bir yaşıl, təravətli yarpaq belə içdiyimiz suyu canlandıra bilir. Çalışın içdiyiniz suya da diqqət edin. Qaynadılmış və ya süzülmüş su içməyin. Gecədən dondurucuda dondurulmuş suyu səhər tezdən qoyun donu açılsın. Don açılan zaman görəcəksiniz ki, suyun dibində nə qədər lazımsız maddələr yığışıb. Suyun təmiz hissəsini ayrıca qaba alıb, gün ərzində onu için. Bu daha faydalıdır.

**Orqanizmdə su çatmayanda nələr olur?**

Suyun çatışmazlığı bizim orqanizmimiz üçün təhlükəlidir. Dərinin quruluğu, saçların tez sınması və çox başqaları, görünür ki, kosmetoloji problemlər məhz suyun çatışmazlığından "çıxır". Biz aclığın və susuzluğun hissini çox tez-tez qarışdırırıq. Bu səbəbdən diyetoloqlar suyun stəkanını içməyi məsləhət görürlər. Suyun çatışmazlığı nəsə şirin yemənin təhrikçisidir. Xüsusilə bu məşqlər zamanı gözə çarpandır. Əgər siz məşğul olursunuzsa, onda özünüzün yanında suyu saxlamağa çalışın, amma böyük porsiyalarla içməyin - suyun bir qurtumu kifayət olacaq. Həmçinin, orqanizmdə suyun çatışmazlığı məşqlərin effektivliyini əhəmiyyətli dərəcədə aşağı salır.

Xroniki yorğunluq həmçinin mayenin çatışmazlığının nəticəsi ola bilər. Məsələ ondadır ki, əgər orqanizmə maye çatmırsa, qan daha sıx olur, ürək döyüntüsü yavaşıyır və qan daha yavaş beyinə hərəkət edir. Daha bir maraqlı fakt - suyun çatışmazlığı pis əhval-ruhiyyənin səbəbi ola bilər.

Yemək zamanı və qidanın qəbulundan dərhal sonra su içmək zərərlidir. Maye mədə şirəsini durulaşdırır və qida pis həzm edilir. Gələcəkdə bu, həzmlə problemlərə gətirib çıxara bilər. Ona görə yeməkdən dərhal sonra maye qəbulu məsləhət görülmür. Amma bunun əksini də düşünənlər var. Kalqari Universitetinin alimlərinin tədqiqatlarına əsasən, içki heç cür mədə şirəsinin turşluq dərəcəsinə təsir etmir. Bizim orqanizmimiz turşluq dərəcəsini nizama salır. Hətta biz yemək iyi hiss edəndə və yeməkləri görəndə turşuluq dA artır. Turşluq dərəcəsinin gözə çarpan dəyişikliyi üçün insana suyu böyük miqdarda içmək lazımdır.

Yeməkdən əvvəl və ya yemək zamanı içilmiş su hansısa bir ölçüdə bizə kömək edir - belə olanda biz daha az yeyirik. İnsan hər xörəklə birlikdə və yemək aralarında bir stəkan su içməlidir. Məşqdən əvvəl, sonra və məşqlər zamanı kifayət qədər maye qəbulu olmalı, insan susuz qalmamalıdır.

**Gündə 3 litrdən artıq su içən də var, amma...**

Belə bir formul mövcuddur - insan çəkisinin hər 1 kiloqramı üçün 30-40 ml su. Digər formula görə - 1500 ml + insan çəkisinin hər 1 kq-na 20 ml su (bədən çəkisi 20 kq-dan artıq olduqda). Orta hesabla 70 kq bədən çəkisi olan insan gün ərzində 2,5 litr və daha artıq su qəbul etməlidir. Təbii ki, bu, heç də o demək deyil ki, insan hər gün mütləq düz 3 l su içməlidir. Axı biz suyu digər məhsullardan də alırıq - suplar, şirələr, meyvə və tərəvəzlərdə olan su və s.

Hər gün insan orqanizmindən orta hesabla 2 l (isti yay günlərində bundan da artıq) maye ifraz olunur. Yalnız böyrəklər gün ərzində təxminən 1-1,3 l qədər maye ifraz edir. Bundan əlavə dərimiz, bağırsaqlarımız və ağ ciyərlərimiz vasitəsilə də ətraf mühitə maye ifraz olunur.

İnsanların bir hissəsi az su içir. Bu səbəbdən bu insanların sağlamlığında müxtəlif pozulmalar baş verir - böyrək xəstəlikləri, qəbizlik və s. Belə insanların dərisi daha tez qocalaraq öz təravətini itirir. Bir sıra həkimlərin fikrincə, insanın immun sisteminde olan pozulmalar məhz orqanizmin susuzlaşması ilə bağlıdır.

Digər qrup insanlar gün ərzində hətta 3 litrdən artıq su içirlər. İnsan sağlamdırsa, bu ona heç bir mənfi təsir etməz. Lakin ağır xroniki ürək (ürək çatışmazlığı, bəzi ürək qüsurları formalarında və s. ) və böyrək



(böyrək çatışmazlığı, kəskin qlomerulonefrit və s.) xəstəlikləri zamanı mayenin qəbulu məhdudlaşdırılmalıdır (bunu müalicə həkimi təyin edir).

**Kim gündə nə qədər addımlayır?**

İndi isə keçək gün ərzində gəzinti normamıza, addımlarımızın sayına. Bir çoxumuz gün ərzində nə qədər idman etməli olduğumuzu bilmirik. Amma hamımız gündə 10 min addım atmaq fikrini çox sevirik. Bir çoxumuz ağıllı telefonlar, saatlar vasitəsilə gündəlik addım saylarımızı təqib edirik. Hətta bəzən evin içində bir otaqdan digərinə keçməklə addımlarımızın sayını artırır, o sehrli rəqəmi yaxalamağa çalışırıq.

İnsanları daha çox hərəkət etməyə təşviq edən bir şeyin pis düşüncə olduğunu demək mümkün deyil. Ancaq gündə 10 min addım fikrinin bir az bəsitə doğru gedən və ya elmilikdən daha çox ticari bir fikir olduğunu düşünənlər var.

Əslində gündə 10 min addım fikri 1960-cı illərdə Yaponiyada ortaya çıxıb. O illərdə Yaponiyada "manpokei" adlı bir addım sayan cihaz istehsalçısı vardı. Manpokei digər dillərə "10 min addım metr" olaraq çevrildi. Burada 10 min sayı idman üçün qızıl rəqəm anlamında yox, tamamən Yaponiya mədəniyyətində yüksək bir rəqəm olduğu üçün seçilib.

Yaxşı, bəs elmi araşdırmalar gündə 10 min addım məsələsi ilə bağlı hansı nəticəyə gəlib?

Arizona Universiteti tərəfindən aparılan bir araşdırmaya görə, gündə 10 min hədəfi media sayəsində böyük bir sürətlə dünyada qəbul edilir. Ancaq araşdırmada qeyd edilir ki, bu hədəf uşaqlar üçün çox aşağı qalacaq. Araşdırmaçılar sağlam olan böyüklərin günlük addım hədəflərini belə sıralayır:

5.000 addımdan az - hərəkətsiz həyat tərzi

5.000 - 7.500 addım - aşağı səviyyəli aktiv yaşam (idman və ya gimnastika xaricindəki günlük fəaliyyət)

7.500 - 10.000 addım - aktiv yaşam (öz istəyi ilə edilən fəaliyyət)

12.500 addımdan artıq - çox aktiv həyat tərzi

**Addım sayan alətlər etibarlıdırmı?**

Ancaq burada həssas bir məqam var. Hərəkətsiz həyat tərzindən, aktiv həyat tərzinə keçə bilmək üçün 2.500 addım daha atmış olmanız lazımdır və bu 2500 addımı sürətli olaraq, ən azı dəqiqədə 100 addım atacaq şəkildə yerimələsiniz. Bundan başqa, ən azı 10 dəqiqə ərzində bu tempi saxlamalısınız. Əgər bu şərtləri təmin etmirsizsə, 10 min addım atmış olsanız belə, ümumi sağlamlıq üçün lazım olan gimnastikanı etmiş sayılırsız. Bundan başqa, sürətli gəzinti, xəfif qaçış və ya normal qaçış edərək, ən azı 10 dəqiqə boyunca ürəyinizin sürətini artırdığınız zaman gündə 10 min addım atmasanız belə, ümumi sağlamlıq baxımdan lazım olan gimnastikanı edirsiniz. Bunun üçün nərdivanları qalxa və ya düşə bilərsiniz. Nərdivanı enib-düşmək daha çox əzələləri fəallaşdırır və düz yerdə gəzməklə müqayisədə daha çox kalori yandırmağınıza səbəb olur. Bundan başqa, nərdivanları addım-addım enmək və ya qalxmaq əvəzinə qaçaraq enib çıxmanız sağlamlığınız üçün daha dəyərli sayılır. Beləcə, gündə 10 min addım atmadan da gündəlik aktiv gimnastikanızı etmiş olursunuz.

İndi gələk işin marketinq hissəsinə... Əcəba, addım sayan alətlərə nə qədər güvənə bilərik? Bu suala hələ də dəqiq cavab verilməyib. 2016-cı ildə "Medicine and Science in Sports and Exercise" jurnalında dərc edilən bir araşdırmada yazılmışdı ki, ikisi biləyə, ikisi də belə taxılan dörd ədəd addımsayan alət araşdırılıb və araşdırmanın nəticəsində alətlərin əsasən addımları doğru saydığı, ancaq yandırılan kalori məsələsində çox "səxavətli" olduğu üzə çıxıb. "International Journal of Exercise Science"da 2017-ci ilin yanvar ayında nəticələri yayımlanan bir başqa araşdırmada isə belə taxılan addımsayarların qola taxılan addımsayarlarla müqayisədə daha dəqiq nəticələr verdiyi üzə çıxıb. Amma bu məhsulların qiyməti artdıqca onların dəqiqlik dərəcəsi də azalır. Yəni əlinizdəki addımsayarı təqib edə bilərsiz, amma ona hər zaman etibar etməyin.

Əslində gündə 10 min addım atmaq, sağlam bir həyat tərzini mənimsəmək üçün yaxşı bir gündəlik sayılır. Amma sizin hədəfiniz çəki itirmək, performansınızı artırmaq və ya sağlam həyat tərzinə qovuşmaqdırsa, o zaman addım atmaqdan daha artığını etməlisiniz.

Addımsayan alətlərlə addımlarınızın sayını təqib etmək aktiv bir həyat tərzi üçün motivə edici ola bilər. Halbuki sağlam və fit olmaq üçün addımlarınızı saymağınıza ehtiyac yoxdur. Yenə də rəqəmləri təqib etməyi sevirsinizsə, favorit addımsayarınızı alın və hərəkətə başlayın. Əsas odur ki, bunun bir ölçmə aləti olduğunu bilin və ekranda gördüyünüz rəqəmlərin hər zaman dəqiq olmadığını bilin. Addımsayarlardan nifrət edirsinizsə, bu da problem deyil. O zaman siz də mümkün olduğu qədər hərəkət etməyə və gündə ən azından 30 dəqiqə boyunca ürəyinizin sürətini artırmağa çalışın. Bu, bəs edəcək.

Sonda... Bütün bunlar elmi araşdırmalarla sübut edilmiş məlumatlardır. İnsan sağlam yaşamaq istəyirsə, həyat tərzinə bir qədər korrektələr etməlidir. Sağlam həyat tərzi, bol gəzinti, idman, düzgün qidalanma...

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 69 (6958) 2 aprel 2018



## Qadınlar ana olmaq üçün yayı gözləyirlər

**"The İndependent" yeni araşdırmaya istinadən yazır ki, qadınlar bir qayda olaraq dünyaya uşaq gətirmək üçün yaz-yay aylarını hədəfləyirlər. ABŞ-da aparılmış araşdırma göstərib ki, anaların ilk uşaqları iyun-sentyabr ayında, noyabr-martla müqayisədə daha çox dünyaya gəlirlər.**

Hesabatda deyilir ki, gənc qadınlar və ələlxüsus da ABŞ-ın qışı sərt keçən yerlərində yaşayanlar uşaqlarını daha çox ilin ilk altı ayı ərzində dünyaya gətirməyə meyllənirlər.

"The İndependent" qəzetində dərc olunmuş məqalədə deyilir ki, cənub yarımkürəsinə daxil ölkələrdə bunun tamamilə əksi baş verir. Orada daha çox uşaq dekabr-mart aylarında doğulur. Çünki cənubun yayı, şimalın qışıdır. Oxford Universitetindən araşdırmanın həmmüəllifi doktor Climent Quintana-Domenique deyib ki, doğuş mövsümünün planlı şəkildə seçilməsi ilk dəfə olaraq sübut edilib.

Alim deyib ki, anaların uşaq doğmaq üçün "daha münasib" fəsil seçməsi tamamilə məntiqlidir. Maraqlıdır ki, Britaniyanın babycentre internet saytı iyun-oktyabr ayları arasında doğulanların, "qış uşaqları" ilə müqayisədə daha ucaboy və iri sümüklü olduğunu yazır.

Sayt iddia edir ki, bu, yay mövsümündə D vitamininin təbii qəbulu üçün daha böyük imkanlar mövcud olması ilə bağlıdır.

## Şirniyyat sevərliklə cinayətkarlıq arasında əlaqə varmış

**Uşaqlıqda hər gün şokolad və şirni yeyən uşaqlar sonralar - yetkin həyatlarında aqressiv olurlar. Böyük Britaniyanın Kardiff universitetinin (Cardiff University) alimləri tərəfindən aparılmış tədqiqatın nəticələri bunu deyir. Tədqiqatlara həyat tərzi 10 il ərzində sənədləşdirilmiş cinayətkarlar cəlb olunublar.**



Məlum olub ki, tədqiqatın zorakı əməllərə görə məhkum edilmiş 29-34 yaş arası obyektlərindən 69 faizi uşaq vaxtı, demək olar ki, hər gün konfet yeyibmiş. Müqayisə üçün deyək ki, qeyri-zorakı qanun pozuntularına görə məhkum edilmişlərin yalnız 42%-i uşaqlıqda müntəzəm surətdə şirni ilə təmin olunub. Qəddarlıqla şirni qəbulu arasında qanunauyğunluq hətta bütün başqa amillər nəzərə alındıqdan sonra belə saxlanılırdı. Alimlərin rəyinə görə, uşaqlara şirni və şokolad yedirdilməsi onlarda impulsiv davranışın inkişafına rəvac verir, bu cür davranış isə cinayətlərlə olduqca sıx surətdə əlaqədardır. Digər ehtimallara görə, şirni tərkibindəki qida əlavələrinə və ya qandakı şəkərin miqdarını tez-tez dəyişdirdiyinə görə öz-özlüyündə problemlər yaratmağa qadirdir.

## Yaponlar robotları həyatlarından çıxarırlar



**Yaponiyada indiyədək robotların görməli olduğu işi insanlar görür - işıqforun yerinə yol polisi əməkdaşı işləyir, ofis kompüterlərində isə yaşı 10 ili keçmiş proqram təminatından hələ də istifadə olunur. BBC-nin araşdırmasına görə, mağazalarda indiyədək faks və kaset maqnitofonlarına rast gəlmək olar, hətta "Sony" kimi nəhəng şirkət də indinin özündə faks maşınlardan istifadə edir. "Yaponiya şirkətləri informasiya texnologiyalarının tətbiqi baxımından xarici rəqiblərindən 5-10 il geri qalır", - deyə kompüter sistemləri sahəsində ixtisaslaşan "Starfighter" şirkətinin başçısı Patrik McKenzi deyir.**

Yaponiyadakı dükanlarda ödənişi mobil telefon vasitəsilə etmək mümkün olsa da, şirkətlərdə bu üsuldan istifadə edənlərə, Skype və ya Dropbox proqramlarını işlədənə rast gəlmək, demək olar ki, mümkün deyil. Bununla belə, Yaponiya dünyada ən geniş inkişaf etmiş internet infrastrukturuna malikdir.

Tokiodakı "Interarrows" İT şirkətinin prezidenti Jodzsi Otokozava bu cür vəziyyətin səbəbini ölkədə xırda biznesin həcm etibarı ilə iri korporativ biznesi xeyli üstələməsində görür. "İndiyədək bizə məktublar poçt vasitəsilə gəlir, əllə yazılmış fakslar göndərilir, partnyorlarımız hətta Word proqramından istifadə edə bilmirlər", - deyə Jodzsi Otokozava deyir. Kompüter əvəzinə insan əməyindən istifadə etmək mümkün olan sahələrdə Yaponiya şirkətləri innovasiyalar tətbiq etməyə tələsmirlər. Görünür, məhz bu cür yanaşma sayəsində Yaponiyada işsizlik rekord dərəcədə aşağı səviyyədə - 3.4 faiz olaraq qalmaqdadır. Getdikcə daha çox intellektual kapital iqtisadiyyatına keçməyə səy göstərən müasir dünyada, aydındır ki, süni intellektin, robotların və iş yerlərinin kömpüterləşdirilməsi tendensiyasının qarşısını almaq çətindir.




**QOÇ** - Kosmik enerji bucağının mərkəzində olduğunuzdan aktivliyiniz artacaq. Məişət qayğıları kimi xırda problemləri isə beyninizdən çıxarın. Daha çox bəşəri ideyalar barədə düşünün.

**BUĞA** - Özünüzü hər bir situasiyaya hazırlayın. Çünki ulduzların düzümü bu ərəfədə hər cür hadisə və insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Öz mənafeyinizi əsas tutun.

**ƏKİZLƏR** - O qədər də səmərəli vaxt deyil. Mövcud situasiyalar ideyalarınızda, eləcə də qarşınıza qoyduğunuz məqsədlərdə donuqluq yaradacaq. Odur ki, qeyri-ənənəvi heç bir iş görməyin.

**XƏRÇƏNG** - Hər mənada uğurlu vaxtdır. Ətrafınızda olan hər bir olay əhval-ruhiyyənizə müsbət təsir göstərəcək. Bu axşam füsunkar bir məclisdə iştirakınız gözlənilir. Kiminsə əleyhinə danışmayın.

**ŞİR** - Ümumi məziyyətlərinə görə uğursuz vaxtdır. Hansısa gecikmiş planın reallaşmasına cəhd etməyin, yoxsa əliniz boşda qalacaq. Bu gün uzaq səfərə çıxmaq sizə səmərə verəcək.

**QIZ** - İşə az aludə olun. Çünki fəaliyyət müstəvisində passivlik baş qaldırdığından istirahətə daha çox yer ayırmalısınız. Günortadan sonra yeni əlaqələr yaratmaq üçün münasibdir.

**TƏRƏZİ** - Hazırda aparıcı mövqeyə malik olan Qoç bürcü əksər məsələlərdə sizin bürclə əkslik təşkil etdiyindən riskli işlərə girişməməlisiniz. Yalnız ailə-mənzil qayğıları ilə məşğul olun.

**ƏQRƏB** - Əsasən ailə-sevgi münasibətlərində irəliləyişlərə nail ola bilərsiniz. Planetlərin hazırkı mənzərəsi bu istiqamətdə sizə yaxından kömək edə bilər. Şəxsi büdcənizi dağıtmayın.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimi daha çox ibadətə, xeyirxah işlərə həsr edin. Günün ikinci yarısında yaxınlarınıza və ehtiyac sahiblərinə baş çəkin. Hər kəsi sevindirin ki, özünüz də sevinəsiniz.

**OĞLAQ** - Bu tarixdən başlayaraq pulla bağlı problemləriniz qismən də olsa, həll olunacaq. Əsas diqqətinizi bu yönümə istiqamətləndirməlisiniz. Hər hansı yeni işə başlamağa tələsməyin.

**SUTÖKƏN** - Enerjinizin artmasına rəvac verən bu gün maraqlı adamlarla görüşünüzə şərait yaradacaq. Öz hisslərinizi büruzə verməyin. İstənilən işgüzar sövdələşmələrdənsə çəkinməyin.

**BALIQLAR** - Maliyyə durumunuzun normal hala düşəcəyini bəyan edən ulduzlar bu istiqamətdə problemlərinizin azalacağını bildirir. Nahardan sonra yaxşı insanların dəstəyini alacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Tutuquşu ilə dalaşan kişidən polisə şikayət edildi



**Kanadanın Brayton şəhər sakinləri qonşularının öz tutuquşusu ilə dava etməsinə görə polisə müraciət ediblər. Qonşuları quşu onun həyat yoldaşı kimi qəbul edib və kişinin öz arvadı ilə dalaşdığını düşünərək şikayət ediblər.**

Polisə eyni vaxtda bir neçə nəfər müraciət edib və onlar deyiblər ki, qonşuları hündürdən arvadı ilə dalaşır, onu ölümlə təhdid edir. Hadisə yerinə gələn polislər kişinin evdə tək olduğunu görüblər. "Biz evə girəndə gördük ki, kişi öz tutuquşusuna qışqırır, çünki sonuncu onu söyürdü". Bunu da polis deyib və əlavə edib ki, kanadalı spirtli içki içsə də, tutuquşunun həyatına dair hər hansı təhlükə olmayıb. Polislər kişini həbs etməyib və ona qarşı hər hansı inzibati tədbir görməyiblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100